# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycan dünyanın ən inkişaf edən 8-liyinə daxil edilir



7

SƏS

№ 128 (7296)

23 iyul 2025-ci il.

Qiymәti 60 qәpik

## Prezident İlham Əliyev Şuşa Forumundakı çıxışını paylaşdığına görə Donald Trampa təşəkkür edib



2

# Ukraynanın, yoxsa Rusiyanın 50 günü?



11

## Öyrəşməkdən asılılığa gedən yol



15

## Şəxsi sərhədlər və cəmiyyətin müdaxiləsi



14

## "Barselona" bu futbolçu ilə yeni müqaviləyə hazırlaşır



16

## Ağacın kökünü qurutmayaq



8

## Bizim qələm...



10

# Prezident İlham Əliyev Şuşa Forumundakı çıxışını paylaşdığına görə Donald Trampa təşəkkür edib



Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa öz sosial şəbəkəsində onun Şuşa Qlobal Media Forumundakı çıxışını paylaşdığına görə təşəkkür edib. AZƏRTAC xəbər verir ki, bu barədə dövlətimizin başçısı "X" hesabında bildirib: "Şuşa Qlobal Media Forumunda ABŞ-Azərbaycan tərəfdaşlığı və həmçinin Prezident Donald Trampın həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliyi ilə bağlı qeyd etdiyim fikirlərimi öz sosial media platformasında paylaşdığına görə ona minnətdarlığımı bildirmək istərdim.

Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təşviq edilməsi ilə bağlı baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm. Biz, həmçinin ailə ənənələrinin əhəmiyyəti kimi ortaq dəyərləri bölüşürük və onun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətlərinin yeni səviyyəyə qalxacağına ümid edirik. Biz ona bu məqsədə nail olunması istiqamətində bütün səylərində uğurlar arzulayırıq".

# Dövlət maraqlarını qorumağa qadir AZƏRBAYCAN MEDİASI

## Prezident İlham Əliyev: "Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb"

Qarabağın incisi Şuşa daha bir beynəlxalq tədbirə ev sahibliyi etdi. "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumu keçirildi. Musiqi beşiyi olan Şuşa işğaldan azad olunandan sonra bir neçə tədbirlərə ev sahibliyi edərək, qoynundan Azərbaycanla bağlı olan həqiqətləri dünya ictimaiyyətinə çatdıraraq, mesajlar verir. "Qafqazın Konservatoriyası", Azərbaycanın Mədəniyyət Paytaxtı Şuşa torpağına ayaq basan hər kəsdə bu torpağa məhəbbət yaranır. Burada "Xarıbülbül" musiqi festivalı və Vaqif Poeziya Günləri bərpa edildi. Zəfər Qurultayı keçirildi. Daha sonra bir-birinin ardınca beynəlxalq tədbirlərə ev sahibliyi edərək, tarixi salnaməsinə unudulmaz günləri həkk etdi. Azərbaycanın ictimai-siyasi, mədəni həyatının təntənəsinə çevrilən Şuşada hələ neçə-neçə tədbirlər baş tutacaqdır. Bu gün şəhid jurnalistlərimizin də ruhu şaddır ki, qanları axıdılan torpaqlarımız azad nəfəs alır. Onların vətənində, azad Şuşada dünya ölkələrinin mətbuat nümayəndələri toplaşırlar.

Bu gün dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan Azərbaycanın uğurlarının dünyaya çatdırılmasında milli mətbuatın rolu əvəzsizdir. Ölkəmizdə demokratik proseslərin inkişafı, milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Bu gün ölkəmizdə media azadlığı təmin olunub, internet media inkişaf edib, jurnalistlərin sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Azərbaycan mediası hazırda bölgə üçün ən qabaqcıl nümunələrdən birinə çevrilib. Azərbaycan mətbuatı qloballaşan dünyada dəyərlərimizi, milli maraqlarımızın və mənafelərimizin qorunmasında daha məsuliyyətlidir.




### "ƏN MÜHÜM MÖVZULARIN MEHRİBAN ŞƏRAİTDƏ AÇIQ MÜZAKİRƏLƏRİNƏ BÖYÜK EHTİYAC VAR"

Bu il keçirilən Forum 52 ölkədən 140 qonağı, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələrini bir araya gətirdi. Builki Forum rəqəmsal keçidlər, süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi mövzusuna həsr olunub. Aparılacaq müzakirələr məhz medianın çağırışlar və imkanlar qarşısında müqavimətinin gücləndirilməsinə, o cümlədən rəqəmsal transformasiyanın təsirinə və müstəqil jurnalistikanın, sülhün, inkişafın, qarşılıqlı anlaşmanın daha da artırılmasına yönələcək.

"Üçüncü dəfədir ki, belə bir mühüm tədbir Qarabağda keçirilir. Şuşa Media Forumu artıq ənənəvi xarakter alıb. Ümid edirəm ki, bu ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, coğrafi əhatə daha da genişlənir. Bütün bunlar bir daha göstərir ki, ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir. Dünyada vəziyyət sürətlə dəyişir. Əgər ötən il Şuşada keçirilmiş Forumdan başlasaq görərik ki, nə qədər çox dəyişikliklər baş verib." Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı bildirib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan mediasının inkişafı məni çox sevindirir: "Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb. Mən bunu tam səmimiyyətlə deyirəm, sizə xoş söz demək üçün yox. Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır. Mən, sözün əsl mənasında, sevinirəm və sizə yeni uğurlar arzulayıram. Azərbaycan bu gün elə bir mərhələdədir ki, hələ də özünü müdafiə etməyə ehtiyacı var. Bu gün Avropadan olan həmkarınız da artıq bu sualı verəndə də onu qeyd etdi: Siz Qərbin ictimai fikrinə, ictimai rəyinə necə təsir edə bilərsiniz? Məncə, media ən yaxşı vasitədir".

Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə media nümayəndələrinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı milli mətbuatımıza olan qayğının daha bir təzahürüdür. Sərəncama əsasən, Azərbaycanda milli mətbuatın inkişafında xidmətlərinə görə bir qrup mətbuat işçisi "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", 1-ci dərəcəli "Əmək" ordeni, 3-cü dərəcəli "Əmək" ordeni, "Tərəqqi" medalı, "Əməkdar jurnalist" fəxri adı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüblər.

### İŞIQ ÜZÜ GÖRƏN ÇOXSAYLI NƏŞRLƏR TARİXİMİZİN GÜZGÜSÜ OLDU

1875-ci ilin 22 iyul tarixində təməli qoyulan milli mətbuatımız Azərbaycanın ictimai-mədəni həyatında böyük əks-səda doğurdu. Milli mətbuatımızın təməlini qoyan "Əkinçi" qəzetinin ilk nömrəsi nəşr olundu və beləliklə, 147 illik tarixi yolda Azərbaycan mətbuatı öz sözünü demiş oldu. Qəzetin naşiri, redaktoru, korrektoru Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas-alim Həsən bəy Zərdabi idi. Belə bir dövrdə qəzetin təməlini qoymaq böyük ziyalılıq, vətənpərvərlik tələb edirdi: iki ali dəyəri özündə birləşdirən Həsən bəy Zərdabi əsrlərə qovuşacaq bir yeniliyə, ilkə imza atmış oldu. Əlbəttə ki, hünər, cəsarət tələb edən bir zamanda təqibləri gözünə almayan ziyalının görkəmli simalar məsləkdaşı, silahdaşı oldu. Bu adlar sırasında imzası Azərbaycan ictimai-mədəni mühitinə yaxşı tanış olan insanlar - Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov kimi simalar var idi. Dövrünün görkəmli maarifçiləri olan bu və ya digər şəxsiyyətlər "Əkinçi" qəzetinin səhifələrində maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai-siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Ardı Səh. 3

# Dövlət maraqlarını qorumağa qadir AZƏRBAYCAN MEDİASI

Prezident İlham Əliyev: "Mən çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb"

Əvvəli Səh. 2

Bir tribunaya çevrilən "Əkinçi" qəzetində elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar yer alırdı. Canlı xalq dilinə əsaslanan qəzet sadə və anlaşıqlı bir dildə oxucularının görüşünə gəlirdi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan "Əkinçi" xalqı cəhalətdən, fanatizmdən uzaqlaşdırmaq, onlara hüquqlarını anlatmaq, xalqın savadlanmasına kömək məqsədi ilə misilsiz işlər görürdü.

## XALQIMIZIN MƏDƏNİYYƏT TARİXİNDƏ BÖYÜK AD QOYAN "ƏKİNÇİ"

Məlum olduğu kimi, qəzetin cəmi 56 sayı işıq üzü gördü və qəzet ayda iki dəfə 300-400 tirajla nəşr edildi. Cəmi 2 il fəaliyyət göstərsə də, xalqımızın mədəniyyət tarixində böyük ad qoyan "Əkinçi" qəzeti Azərbaycan tarixinə yazılan şərəfli səhifələrdən biridir. İlk cığır açan "Əkinçi"dən sonra 1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə "Ziyayi-Qafqaziyyə" qəzetini çıxarmağa nail olur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə, o, çapını dayandırır. 1883-1891-ci illərdə Tiflisdə "Əkinçi" üslubunu davam etdirən "Kəşkül" qəzeti və jurnalı işıq üzü görür. XX əsrdə isə, Azərbaycan dilində çıxan qəzet Məmmədağa Şaxtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzeti olmuşdu. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri danılmazdır. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolunu qeyd etməliyik. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin dahi Üzeyir bəy Hacıbəyli tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir.

## AZƏRBAYCAN MEDİASININ SÜRƏTLİ İNKİŞAF MƏRHƏLƏSİ

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, "XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş demokratik islahatlar bütün sahələrdə olduğu kimi, milli informasiya resurslarının inkişafında da əsaslı dönüş yaratmışdır. Söz və məlumat azadlığının təmin edilməsi, mütərəqqi qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların müstəqilliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsində Azərbaycan mediası sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur."

Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. "Jurnalistlərin dostu" adını qazanmış Ulu Öndər Heydər Əliyev, ölkəmiz müharibə şəraitində yaşasa da, böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.





## "BİZİM MEDİA İŞÇİLƏRİNİN ƏHATƏ DAİRƏSİ NƏ QƏDƏR ÇOX GENİŞ OLARSA, ÖLKƏ HAQQINDA O QƏDƏR DƏ DƏQİQ, DOLĞUN VƏ ƏDALƏTLİ MƏLUMAT DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRILA BİLƏR"

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafına xüsusi diqqət ayırır.

Dövlət başçısı İlham Əliyevin səyləri ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə, "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətdir. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları isə, təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemlidir. "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından, mühüm əhəmiyyət kəsb etmiş oldu.

## "BİZİM MEDİAMIZ ARTIQ İSTƏNİLƏN XOŞAGƏLMƏZ, İFTİRA KAMPANİYASINA CAVAB VERMƏYƏ QADİRDİR"

Azərbaycanın 44 günlük Vətən müharibəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolunu da xüsusi qeyd etməliyik. Ən qaynar nöqtələrdə biz mətbuat işçilərinin səsini eşitdik. "Bizim media işçilərinin əhatə dairəsi nə qədər çox geniş olarsa, ölkə haqqında o qədər də dəqiq, dolğun və ədalətli məlumat dünya ictimaiyyətinə çatdırıla bilər. Burada hələ görüləsi işlər çoxdur. Ancaq mən deyə bilərəm ki, bizim mediamız artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli yeni reallıqdır", - deyə Azərbaycan Prezidenti bildirib.

Düzgün və qərəzsiz informasiyaları dünyaya yaymış oldular. Erməni terroru, təcavüzkar siyasəti qələmə alındı, reportajlar yayımlandı. Peşəkar mətbuat öz sözünü demiş oldu. Erməni lobbisinin Azərbaycana qarşı qərəzli fəaliyyətdə olduğu bir zamanda, Azərbaycan həqiqətləri olduğu kimi dünyaya çatdırıldı, erməni terrorizmi faktlar əsasında ifşa olundu. Anti-Azərbaycan kampaniyasına qarşı mübarizədə bütün güc və iradələr birləşdi, mətbuatımız öz üzərinə düşən vəzifəni şərəflə yerinə yetirdi. "Azərbaycan Respublikası müstəqil siyasət yürüdən, müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan dövlətdir, - deyə çıxışlarının birində bildirən dövlət başçısı qeyd edib ki, Vətən müharibəsi zamanı Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynamışdır:"Media resurslarımız Azərbaycan həqiqətlərini, o cümlədən işğal dövründə ermənilərin tarixi torpaqlarımızda törətdikləri misli görünməmiş vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini yorulmadan davam etdirirlər". Azərbaycan Prezidenti onu da qeyd edib ki, vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar.

## İNFORMASİYA MÜHİTİ GÜNDƏN-GÜNƏ MODERNLƏŞİR

Azərbaycan dövləti tərəfindən hər zaman azad söz, azad mətbuat problemlərini həlli istiqamətində addımlar atılır. Azərbaycan Respublikasında medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması məqsədilə Dövlət başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Bu gün informasiya mühiti gündən-günə modernləşir, qabaqcıl texnologiyalar həyatımıza daxil olur. Belə bir zamanda mətbuatımızın qarşısında cəmiyyəti daha obyektiv, daha peşəkarlıqla məlumatlandırmaq kimi məsuliyyətli vəzifə dayanır.

Əhalinin və ya müəyyən təbəqənin maariflənmdirilməsinə, ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, onların diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş vermək və mediada yayımlanmasını təmin etmək də vəzifələri sırasına daxil edilib. Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynayan Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir. Bu gün artıq mətbuatımızın 150-ci ildönümünü qeyd edirik. Mətbuat Günü təkcə jurnalistlərin yox, bütövlükdə, cəmiyyətimizin bayramıdır. Çünki azad söz azad cəmiyyətin təməl daşıdır. Böyük bir tarixi yol keçən milli mətbuatımızın xalqımızın həyatında çox böyük rolu var.

***ZÜMRÜD BAYRAMOVA***

# Dünya mətbuatı III Qlobal Media Forumunda Prezident İlham Əliyevin çıxışını geniş işıqlandırıb

***Dünyanın nüfuzlu mətbuat orqanları Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından əsas məqamları işıqlandırmaqda davam edir.***

Çinin Sinxua agentliyinin "Azərbaycan Prezidenti Çinlə qarşılıqlı etimadın yüksək səviyyəsini alqışlayıb" sərlövhəli məqalə dərc edib. Yazıda qeyd olunub ki, Prezident İlham Əliyev iki ölkə arasında əməkdaşlıq səviyyəsini yüksək qiymətləndirib, son dövrlərdə Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə dəfələrlə görüşmək imkanı olduğunu, bu il dövlət səfərim zamanı və ötən il beynəlxalq sammit çərçivəsində keçirilən görüşlərdə iki mühüm sənədin - ötən il "Strateji tərəfdaşlıq haqqında Bəyanat", bu il isə "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalandığını bildirib. Azərbaycanın dövlət başçısı diqqətə çatdırıb ki, bu sənədlər dövlətlərarası münasibətlərin ən yüksək formalarını əks etdirir.










Çinin "Sina", "Finance.sina", "Quança", "163.com" və digər qəzet və portallarında dərc olunan məqalələrdə qeyd olunub ki, Prezident İlham Əliyev bir neçə gün öncə ümumvətəndaş pasportları ilə Çinə səfər etmək istəyən Azərbaycan vətəndaşları üçün viza rejiminin tamamilə aradan qaldırıldığı, Azərbaycanın isə bir il əvvəl Çin vətəndaşları üçün viza rejimini ləğv etdiyi barədə məlumat verib, bu addımın xalqlarımız, tələbələrimiz və iş adamlarımız arasında təmasların daha da intensivləşməsinə səbəb olacağını vurğulayıb.

Məqalələrdə xüsusi olaraq qeyd edilib ki, Prezident İlham Əliyev Azərbaycanla Çinin hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, Bakının Tayvan və digər məsələlər ilə bağlı Pekinin mövqeyini müdafiə etdiyini bildirib. O, həmçinin iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına dair böyük planların olduğunu, artıq Çinin bir çox şəhərlərindən Azərbaycana və Azərbaycan ərazisindən Qərbə konteyner qatarları göndərildiyini diqqətə çatdırıb. "Biz Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü əvvəldən dəstəkləmişik və bu məqsədlə ölkəmizdə uyğun nəqliyyat-logistika infrastrukturunu hazır etmişik", -deyə Azərbaycan Prezidenti vurğulayıb.

Çin mediası dövlətimizin başçısının Ermənistanla davam edən sülh prosesi, AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı Bakının mövqeyi barədə fikirlərinə də geniş yer ayırıb.

Yaponiya mətbuatı da Prezident İlham Əliyevin çıxışını geniş işıqlandırıb. Gündoğan ölkəsinin "Tokionp", "Newseveryday", "Sankei Sinbun", "Newspick", "Okinawatimes", "47News", "Net Nihonkai" qəzet və portallarında Prezident İlham Əliyevin AZAL aviaşirkətinə məxsus təyyarənin Rusiya səmasında vurulması, bu insidentlə bağlı qarşı tərəfin hələ də heç bir məntiqli açıqlama verməməsi fikirləri yer alıb. Yapon mediasının xəbərlərində qeyd olunub ki, Azərbaycan dövlətinin başçısı Moskvanın həlak olanların ailələlərinə və yaralanan şəxslərə, həmçinin AZAL-ın təyyarəsinə görə təzminat ödəməsi tələbini irəli sürüb. Dövlətimizin başçısının aşağıdakı sözləri sitat gətirilir: "Biz artıq Rusiya tərəfini məlumatlandırmışıq ki, beynəlxalq ədliyyə sisteminə müraciət edəcəyik. Biz müəyyən bir qovluq hazırlayırıq. Bilirik ki, buna vaxt lazımdır. On il lazım oldu ki, Malayziya hava yollarına məxsus "Boeing"lə bağlı təhqiqat başa çatsın. Ancaq biz bu ədalətə nail olacağıq. Biz bunu əldə edəcəyik. Təəssüf ki, bugünkü vəziyyət ikitərəfli münasibətlərimiz baxımından heç də məqbul deyil".




Yapon mediası Prezident İlham Əliyevin Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasına dair rəsmi Bakının mövqeyini də işıqlandırıb. Materiallarda Azərbaycanın dövlət başçısının sülh müqaviləsinin Ermənistan konstitusiyasına dəyişiklik edilən və ATƏT-in Minsk qrupunun buraxılan kimi imzalana biləcəyini vurğuladığı qeyd olunub.

Fransa mətbuatı da III Qlobal Media Forumunda Prezident İlham Əliyevin çıxışına geniş yer ayırıb. "Euronews" və "RFI" media orqanlarının xəbərlərində də əsas diqqət dövlətimizin başçısının AZAL aviaşirkətinə məxsus təyyarənin Rusiya səmasında vurulması, bu insidentlə bağlı rəsmi Bakının mövqeyinə yönəldilib. Materiallarda vurğulanıb ki, Azərbaycan bu məsələ ilə əlaqədar beynəlxalq məhkəmə sisteminə müraciət etmək niyyətindədir. Rəsmi Bakı Rusiyadan həlak olanların ailələrinə və yaralananlara təzminat ödənilməsini tələb edir.

Macarıstan mediasında dərc olunan materiallarda da Prezident İlham Əliyevin çıxışının əsas məqamları yer alıb. "Economx.hu", "Liner.hu", "hvg.hu" informasiya portallarında dərc olunan materiallarda da dövlətimizin başçısının AZAL-a məxsus təyyarənin vurulması, bu insidentlə bağlı Azərbaycanın mövqeyi haqqında fikirləri yer alıb.

Vyetnamın "Vietnamplus", "Vnexpress", "Laodong", "Plo.vn", "Vo.vn", "Baonga" qəzet və portallarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Azərbaycanla Ermənistan arasında nizamlanma və sülh sazişinin imzalanmasına dair fikirləri yer alıb. Qeyd olunub ki, Azərbaycan dövlət başçısı Əbu-Dabidə keçirilən görüşün nəticələrini şərh edərkən bildirib ki, sülh sazişi Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının yer aldığı konstitusiyasında dəyişiklik və ATƏT-in Minsk qrupunun buraxılmasından sonra imzalana bilər. Materiallarda, həmçinin dövlətimizin başçısının AZAL-a məxsus təyyarənin vurulması, bu insidentlə bağlı Azərbaycanın mövqeyi haqqında fikirlərinə yer verilib.

Çilinin "El-periodista", "El-vinotinto, "İnoticias" informasiya portallarında dərc olunan materiallarda Prezident İlham Əliyevin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanması, Zəngəzur dəhlizinin açılması ilə bağlı fikirlərinə geniş yer ayrılıb. Diqqətə çatdırıb ki, Azərbaycanın dövlət başçısı ölkəsinin Ermənistan ilə sülhə yaxın olduğunu bildirib, amma İrəvanın bu prosesdə daha konstruktiv rol oynamasının, eyni zamanda, kommunikasiyaların açılması istiqamətində müsbət addımlar atmasının zəruriliyini vurğulayıb. Materiallarda, həmçinin dövlətimizin başçısının AZAL-a məxsus təyyarənin Rusiya səmasında vurulması, bu insidentlə bağlı Azərbaycanın mövqeyi haqqında fikirləri də təqdim olunub.

Hindistanın "Hindustan Times", "Firstpost", Tourguidence" qəzet və portallarında da Prezident İlham Əliyevin çıxışındakı əsas məqamlara yer ayrılıb. Əsas diqqət AZAL-a məxsus təyyarənin vurulması və 38 sərnişinin həlak olması ilə nəticələnən bu insidentlə bağlı dövlətimizin başçısının fikirlərinə yönəldilib. Qeyd olunub ki, Prezident İlham Əliyev bu hadisə ilə bağlı Bakının Rusiya tərəfindən hələ də cavab almadığını bildirib və hadisənin tanınmasını, təqsirkarların məsuliyyətə cəlb olunmasını, zərərçəkənlərə təzminat ödənilməsini tələb edib.




İsveçrənin "Swissinfo" nəşrinin dərc etdiyi "Azərbaycan təyyarə qəzası ilə əlaqədar Rusiyadan təzminat tələb edir" sərlövhəli məqalədə dövlətimizin başçısına istinadlə qeyd olunur ki, Azərbaycan yeddi aydır Rusiya tərəfdən heç bir aydın cavab almayıb. Azərbaycanın Baş prokuroru Rusiya Təhqiqat Komissiyasına sorğular göndərir, lakin cavab olaraq yalnız "istintaq davam edir" ifadəsi alınır. Azərbaycan beynəlxalq ədliyyə sisteminə müraciət etmək niyyətindədir.

Pakistanın "İslamabadpost" nəşri isə III Qlobal Media Forumu haqqında geniş hesabat dərc edib. Məqalədə Prezident İlham Əliyevin çıxışından əsas məqamlar - Azərbaycan-Ermənistan sülh prosesi, Zəngəzur dəhlizinin açılması, nəqliyyat-logistika layihələri, beynəlxalq və regional məsələlərlə bağlı fikirlərinə geniş yer verilib. Vurğulanıb ki, 52 ölkədən 140 qonağın iştirak etdiyi bu forum işğaldan azad edilmiş Xankəndidə keçirilir və beynəlxalq dialoqun gücləndirilməsi platforması kimi rəmzi əhəmiyyətə malikdir.

BƏƏ-nin "Şarjah24" qəzeti və rəsmi WAM xəbər agentliyində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin ABŞ-la qarşılıqlı fəaliyyətə dair bəyanatı ön plana çıxarılıb. Qeyd olunub ki, Azərbaycanın lideri Bakı ilə Vaşinqton arasında münasibətlərdə müsbət dinamikaya diqqət çəkib və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin təşviqi istiqamətində göstərdiyi səylərə görə Donald Trampa təşəkkür edib. Yazılarda, həmçinin dövlətimizin başçısının beynəlxalq və regional münasibətlərlə, Əbu-Dabi görüşünün nəticələri ilə bağlı fikirləri də yer alıb.

Kubanın "Prensa Latina" qəzetində dərc olunan "Bakı təyyarə qəzasına görə Moskvaya qarşı iddia hazırlayacaq" sərlövhəli materialda qeyd olunur: "Azərbaycan Prezidenti İlham Əliyev ölkəsinin Azərbaycan Hava Yollarına (AZAL) məxsus təyyarənin qəzaya uğraması ilə bağlı Rusiyaya qarşı beynəlxalq məhkəmələr qarşısında iddia qaldırmaq üçün sənədlər hazırladığını qeyd edib. Prezidentin sözlərinə görə, Azərbaycanın Baş prokuroru ötən ilin dekabrında Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş vermiş qəza ilə bağlı Rusiya İstintaq Komitəsinin rəhbərinə sorğular göndərir, lakin yeganə cavab budur ki, "istintaq davam edir".

İordaniyanın "Petra", Filippinin PNA rəsmi agentlikləri, Honkonqun "Bau" informasiya portalı, Venesuelanın "El radio del Sur", "Prensa Latina", Tayvanın "New talk" qəzet və portalları da Azərbaycan Prezidenti İlham Əliyevin III Qlobal Media Forumundakı çıxışının əsas məqamlarını işıqlandırıb.

# AĞDAM:

## biz elə bir şəhər qururuq ki...



Bugün azadlığı ilə qürur duyduğumuz, azad siması ilə düşmən gözünə ağ olan Ağdamın inkişafına, yenidən qurulmasına, soydaşlarımızın yurd-yuvasına qayıdışına hər dəfə baxanda həm də ürəyimizi sızladan xatirələr canlanır gözlərimiz önündə: 27 il düşmən tapdağı altında qalan və 2020-ci ilin 27 sentyabrından başlanan yolla azadlığına doğru yolçuluğa çıxan Ağdam bir qərinəyə yaxın qara günlər yaşadı. Gözəl hüsnündən əsər-əlamət qalmadı Ağdamın. Vəhşi düşmən bu ağ saraylı, ağ binalı şəhəri yerlə yeksan etdi. Dağıdıldı, yandırıldı, köksü qara tüstü burulğanına büründü. Ağ şəhər qara şəhərə çevrildi. Həm də qara günlü şəhərə...

27 il idi ki, adından "ağ" sözünü çıxarıb Qarabağın qara bəxti, qara taleyi adlandırmışdıq Ağdamı. Çünki ağ günündən, ağappaq şölə saçan növrağından əsər-əlamət qalmamışdı bu yurdun. Ona yad əllər uzanmışdı. Bədxah addımlar köksündə yaralar açmışdı. Tanış olmayan nəfəslər bu yerlərin ağ gününə qara tüstü püskürmüşdü. İllərdi yanırdı çinarlıqları. Sökülürdü abidələri, mədəniyyət ocaqları. Dağıdılırdı zəhmət əllərinin ucaltdığı evlər - bir ailənin ümidi sökülürdü. Evindən-eşiyindən köçmək məcburiyyətində qalanların yuxularının tez-tez qonağı olurdu Ağdam. Bu yuxular dünyada məşhur olan Qarabağ atlarının məskəni olan Ağdamın ağ atlı oğullarından, ağ duvaqlı qızlarından "danışırdı". 27 il əvvəl Qarabağın qoynundakı ən çox şəhid verən bu bəyaz şəhərin qara günlərini nağıl edirdi o yuxular. Lakin nə bu yuxular, nə də real həyat belə davam edəcəkdi. Çünki azərbaycanlıların belə bir deyimi var:

### Qara günün ömrü az olar

Qara günün ömrü 27 il olsa da, 27 sentyabrdan başlanan Vətən müharibəsi Ağdamın bu ömrünün sonu oldu. Müzəffər ordumuzun sürətlə irəliyə doğru irəliləməsi, o yuxulardakı ağ atlı oğulların düşmənin qara kabusuna çevrilməsi son qoydu Ağdamın qara günlərinə. Ali Baş Komandanımızın da söylədiyi kimi: "Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün oldu. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş və böyük vəsait xərclənmiş istehkamlar. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etmişdilər. Bizim gücümüzü düzgün hesablaya bilməmişdilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bizi o Qələbəyə aparan həm gücümüz, texniki təchizatımız, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi".

27 sentyabrdan başlanan hərbi yol 10 noyabrda siyasi yolla birləşərək Ağdamın qələbəsini yaxınlaşdırdı. Tarix yenə 27 il əvvələ geri döndü. Lakin bu dönüş azərbaycanlıların başına açılan o müsibətli günləri qələbə sevinci ilə əvəzlədi. Bu dəfə əzilən, başqasının torpaqlarında ağ gün axtararkən qara günlərin sahibinə çevrilənlər oldu. Tarix öz siyasi lideri və səhifələrinə minilliklərin hünər səhifəsini yazan azəri övladlarının şücaəti ilə Ağdamı ağdamlılara qaytardı. Həmin gün Ağdamın "çöhrəsini" gülümsəyən gördük. Sevinc göz yaşları axıtdıq. Qəlbimiz qürur hissi ilə doldu...

### 20 noyabr 2020-ci il: Ağdam günü

20 noyabr 2020-ci il. Nə gözəl, yaddaqalan tarixə təsadüf edir Ağdamın ağ gününə qovuşması. Üzünə həsrət qaldığı, dalğası hicranı olan bayrağına qovuşması. Deyirlər, bütün rənglərin təməlində ağ rəng dayanır. Öz bəyazlığı fonunda üç rəngdən yaratdığı üçrəngli bayrağını sinəsinə sancdı, başını dik tutub: "Mən azad oldum, mən doğma Vətənimə qovuşdum",- dedi Ağdam.

44 günlük Vətən müharibəsində olduğu kimi, 10 noyabrda imzalanan üçtərəfli Bəyanatın ilk qələbə müjdəsini də Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən aldıq: "Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq".

Bilirdik ki, düşmən Ağdamda daşı daş üzərində qoymayıb, eşitmişdik. Lakin azadlığından sonra yolumuzu Ağdamdan salanda bunu canlı olaraq gördük. Gördük ki, İlahi, bu*ra* vəhşi bir qəbilə hücum edib, sağ qoyduğu bir şey olmayıb ki... Qədim tarixə malik çoxlu sayda memarlıq və incəsənət abidələri ötən 27 ildə yerlə-yeksan olunub Ağdamımızın. XIX əsrdə tikilmiş türbə, Xanoğlu türbəsi, Pənah xanın türbəsi, Pənah xanın imarəti, iki sandığabənzər abidə, XV əsrə aid Sərdabə və Hatəm Məlik qalası, onlarla muzey, məscid, kitabxana, teatr, məktəb düşmənin vəhşiliyi ilə üzləşib. Ağdamda Azərbaycan bayrağı ucaldıldı. Ağdam bu doğma nəfəsləri, tanış əllərin hərarətini duyduqca gülümsəyirdi. 27 il çöhrəsinə qara rəng çəkən Ağdam gülümsəyirdi. Dağıdılmış, viran edilmiş abidələri, tarixi yerləri, incəsənət, mədəniyyət nümunələri, bərəkətli, altı da, üstü də zəngin torpaqları ilə birlikdə gülümsəyirdi. Çünki o əllər bu yurd yerinə yeni həyat vermək üçün gəlmişdi. Minlərlə evinin daşı daş üstündə qalmayan bir yurdu yurddaşlarına vermək, buraya yeni növraq bəxş etmək üçün gəlmişdi. Bu səbəbdən də Ağdam gülümsəyirdi. Qələbəsini, azadlığını bayram edirdi. Bütün işğaldan azad olunmuş torpaqlarımız kimi, Ağdamın da üzünə gülümsəmək necə də yaraşır...

### Ağdamın bu günü düşmən gözünə ağ salır

Bir vaxtlar işğal altında saxladıqları Ağdamı darmadağın edən ermənilər iyrənc hərəkətləri ilə bu torpağın sahibləri olmadıqlarını nümayiş etdirməklə yanaşı, həm də vəhşiliklərini göstərdilər. Bütün dünyaya bəyan etdilər ki, ermənidən qəddar qəbilə yoxdur.

Yurd salmaq, ev tikmək nə qədər çətin olsa da, uzun illərə başa gəlsə də, çox insanlar üçün bir ömrə bərabər olsa da, belə imiş Qarabağ torpaqlarının sakinlərinin alın yazısı. Dağıdılacaqmış illərlə qurub-yaratdıqları. Yeməklərindən, geyimlərindən kəsib daşa, quma verib ucaltdıqları yurdları dağıdılacaqmış. İçərisində nə xəyallar qurduqları evlərə həsrət qalacaqmışlar. Nə arzularla əkdikləri ağaclar bar üstündə düşmənin xəyanətkar əllərinə veriləcəkdi.

27 il bu yurdun insanları köçkün həyatı yaşaya-yaşaya tək təsəlliləri Ağdamın ağ günlərini xəyallarında canlandırmaq olacaqdı. Amma bir məsələ də var ki, gedənlərin, itirilənlərin hər birini qaytarmaq olar, tək torpaqdan savayı. Qoy yansın, sökülsün, dağılsın evlərimiz. Ta ki torpaqlarımız özümüzünkü olsun, yadlar ona sahib çıxmasın. Qoy evsiz-eşiksiz qalaq, torpağın üzərində süfrə açaq, çörək kəsək, evimiz torpağın üzəri olsun, lakin torpağımız özümüzün olsun. Torpaq varsa, onun üzərində hər zaman gözəl, yaraşıqlı evlər qurmaq mümkündür. Su gələn arxa bir də gələr, deyib atalarımız. O arxın varlığı ilə ona yenidən su gələ bilirsə, torpağın varlığı ilə də yeni yurdlar salına bilər. Ağdamda da yenidən yurdlar salınır. Sevinir, gülür kəndləri, şəhərləri, insanları. Çünki...

### Dövlətimiz Ağdamı dirçəldir

Mart ayının 27-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirakları zamanı burada dövlətimizin başçısının çıxışı Ağdamın dünəni ilə bu gününün xronikası xarakterini daşıyırdı: Mən işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşlərim zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən hər dəfə deyirdim ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və biz sizi öz doğma torpağınıza qaytaracağıq. Bu gün də o sözlərimin təsdiqi bir daha öz yerini tapır. Artıq 13-cü yaşayış məntəqəsidir ki, keçmiş köçkünlər qayıdırlar. Bütün keçmiş köçkünlər üçün gələcəkdə bu cür şərait yaradılacaq. Ağdam rayonunun işğaldan sonra birinci yaşayış məntəqəsi keçmiş köçkünlərin sərəncamına verilir. Ancaq bu il digər kəndlərə də ağdamlılar qayıdacaqlar. Kəngərli, Xıdırlı kəndlərinə bu il qayıdış nəzərdə tutulub, digər kəndlərdə inşaat işləri gedir. Təbii olaraq, Ağdam şəhəri sıfırdan qurulur, yenidən qurulur və ölkəmizin ən gözəl şəhərlərindən birinə çevriləcək.

Dövlətimizin başçısı Ağdam şəhərinin və rayonun bütün kəndlərinin mənfur düşmən tərəfindən tamamilə dağıdıldığını, bir dənə də salamat bina qalmadığını vurğulayaraq deyirdi: Bu, bir daha düşmənin xislətini göstərir, bizə tamamilə əsassız olan düşmənçiliyi göstərir. Təsadüfi deyil ki, bəzi xarici ekspertlər, jurnalistlər Ağdama səfər edərkən öz təəccübünü və hətta hiddətini gizlədə bilmirlər. Çünki uzun illər işğal dövründə xarici vətəndaşlar Ağdam bölgəsinə, Ağdam şəhərinə, şəhərdən qalan o yerlərə gələ bilmirdilər. İşğala son qoyulandan sonra həm Azərbaycan vətəndaşları, həm xarici qonaqlar gəlməyə başladılar və gördülər ki, biz hansı düşmənlə üz-üzə idik. Yəni, işğal dövründə şəhər tamamilə söküldü, yerlə-yeksan edildi və Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulmuşdur, Ağdamı isə 30 il ərzində oğrular, talançılar, erməni talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Yəni, bu, misli görünməmiş vəhşilikdir. Mən bunu dəfələrlə demişdim, erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir. Biz Ağdamı yenidən qururuq və quracağıq. İndi genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan sonrakı dövrdə bir çox önəmli infrastruktur obyekti istifadəyə verilib, ilk növbədə, yollar. Ağdam-Bərdə yolu yenidən quruldu. Heç sovet dövründə bu gözəllikdə yol olmamışdır. Ağdam-Xankəndi yolu inşa edilir. Bu da Bərdə-Ağdam yolu kimi dördzolaqlı olacaq. Dəmir yolu çəkilir, yəqin ki, bu il istifadəyə veriləcək. Yəni, Ağdama dəmir yolu ilə rahat gəlmək mümkün olacaq. Vağzal kompleksi inşa edilir. Ağdam məscidi bərpa edilmişdir. Mənfur düşmən bütün müsəlmanları, dünya müsəlmanlarını təhqir etmək üçün orada heyvan saxlayırdı. Birinci bərpa olunan bina Ağdam məscidi olmuşdur. Muğam Mərkəzi inşa edilir. "İmarət" Kompleksi bərpa edildi. Natəvanın qəbri bərpa olundu, düşmən tərəfindən dağıdılmış abidəsinin eynisi yenidən tikildi. Xaçınçay su anbarı yenidən quruldu. Düşmən onu da qurutmuşdu. Məktəb binası inşa edilir, xəstəxana tikilir, böyük sənaye kompleksi fəaliyyət göstərir. Artıq bir neçə müəssisə orada fəaliyyət göstərir və bu, Qarabağ, Şərqi Zəngəzur bölgəsinin ən böyük sənaye kompleksi olacaq. Təbii ki, yaşayış evləri, bir neçə yaşayış kompleksi inşa edilir, bu il istifadəyə veriləcək.

Bununla bərabər, bölgənin turizm imkanları nəzərə alınaraq iki mehmanxana artıq fəaliyyətə başlayıb və həm Ağdam, həm Füzuli, həm ətraf bölgələrə xidmət göstərəcək. Bax, biz belə şəhər qururuq. Yadımdadır, işğaldan sonra ilk dəfə Ağdamda ağdamlılarla görüşəndə və yeni şəhərin təməlini qoyanda mən demişdim, elə bir şəhər quracağıq ki, bütün dünya bizə həsəd aparacaq. Prezidenti İlham Əliyevin iyulun 18-də Ağdama səfəri çərçivəsində bir sıra sosial obyektlərin açılış mərasimində iştirak etməsi Ağdama bəxş olunan ağ günlərin mənzərəsidir. Ağdama qayıdan soydaşlarımızın üzündəki gülüş, xoşbəxtlik də bu mənzərədə aydın görünür...

### Ağdamı şən görmək nə qədər xoşdur...

Hər dəfə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza səfərləri ürəyimizi qürurla doldurur. Müzəffər Ali Baş Komandanın və 44 günlük Vətən müharibəsi dövründə xalqın təsellivericisi olan Mehriban xanım Əliyevanın bu torpaqlara səfəri Zəfərimizin üzərinə yeni bir Zəfər əlavə edir. Azad torpaqlarımızda həyat bərpa olunduqca, öz əvvəlki görkəmlərinin verilməsi ilə bağlı planlar həyata keçirildikcə, düşmənin bağrının çatlamasını duyur və fəxr edirik ki, onlara bu narahatlığı yaşada bilirik. Çünki biz 30 il narahatlıqla, torpaqlarımızın həsrəti, hicranı, nisgili ilə yaşamışıq.

Dövlətimizin başçısının azad torpaqlarımıza hər səfəri onlara yeni həyatın bəxş olunması ilə nəticələnir. Elə Ağdamın da "üzünün" güldüyünü gördük növbəti səfərdə. Onun hüsnünə vurulan hər naxış bu gözəl şəhərin görünüşünü dəyişir, 27 illik nisgilini sevincə çevirir. Ağdam həm də ona görə sevinir ki, sinəsində görülən hər bir iş onu sakinlərinə, doğmalarına daha da yaxınlaşdırır. Çünki torpaq o vaxt bəxtəvərdir ki, sinəsi üzərində doğmalarının addım səslərini dinləyir. 27 illik sükutdan sonra Ağdam bu səsi duydu. Böyük Qayıdışla artıq Ağdam soydaşlarını qoynuna alır. Hələ qarşıda doğmaları ilə birlikdə onu daha xoş, sevincli günlər gözləyir... Çünki burada elə bir şəhər qurulur ki, o, dünyanı heyran edəcək.

***Mətanət Məmmədova***

# "Bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçib"

## Prezident İlham Əliyev Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü münasibətilə media nümayəndələrinə təbrik məktubu göndərib

***Bu gün Azərbaycan Respublikası tam müstəqil xarici siyasət yürüdən, regionun siyasi və iqtisadi mərkəzi statusunu qazanmış, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş güclü dövlətdir. AZƏRTAC xəbər verir ki, bu fikir Prezident İlham Əliyevin Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü münasibətilə media nümayəndələrinə təbrik məktubunda qeyd olunub.***

Həmçinin bildirilib ki, ölkəmizin mövcud inkişaf dinamikası Azərbaycan mediasının da ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırıb, rəqabət qabiliyyətini yüksəldib.

"Qarşıdan gələn dövrdə milli mətbuatımızın qlobal informasiya məkanında yerinin daha da möhkəmlənməsini təmin etmək məqsədilə media savadlılığının yüksəldilməsi, ən qabaqcıl kommunikasiya texnologiyalarının tətbiqi, effektiv və çevik kommunikasiyanın həyata keçirilməsi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellektin tətbiqi, dezinformasiya və saxta xəbərlərlə mübarizə kimi amillər aparıcı rol oynayacaqdır.

Bu gün artıq fəxrlə deyə bilərik ki, bizim milli mətbuat bir əsr yarım ərzində şərəfli və mütərəqqi inkişaf yolu keçib. Əlamətdar haldır ki, budəfəki yubileyi milli mətbuatımız artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanda qeyd edir. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışıb. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə Azərbaycan mediası cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya



hücumlarının qarşısının alınmasında böyük rol oynayıb, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirib.

"Heç şübhəsiz ki, informasiya məkanında qazandığımız zəfər döyüş meydanında qazandığımız və bu il 5-ci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərimizin ayrılmaz parçasıdır". Prezidentin məktubunda daha sonra vurğulanır ki, Azərbaycan mətbuatının müstəqilliyi cəmiyyətimizin inkişafının başlıca şərtlərindən biridir. "Müstəqil, güclü, günümüzün tələblərinə cavab verən, xalqın maraqlarını rəhbər tutan mətbuatın inkişafı və onun sərbəst fəaliyyəti üçün zəruri şəraitin yaradılması hər zaman dövlətimizin qarşısında duran prioritet vəzifələrdən olmuşdur. Bu istiqamətdə daim sistemli iş aparılmış, ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını, media fəaliyyətinin potensialının və iqtisadi əsaslarının möhkəmləndirilməsini, rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını hədəfləyən normativ-hüquqi baza yaradılmış, informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə əsaslı islahatlar həyata keçirilmişdir", - deyə məktubda vurğulanıb.

Məktubda deyilir ki, Azərbaycan milli mətbuatı bütün dövrlərdə cəmiyyəti düşündürən problemləri, zəmanənin qabaqcıl ideyalarını və mütərəqqi fikirlərini əks etdirib, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində, Azərbaycan ədəbi dilinin inkişafında müstəsna xidmətlər göstərib, azadlıq və müstəqillik kimi xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini verib.

1875-ci il iyulun 22-də böyük maarifçi, naşir Həsən bəy Zərdabi tərəfindən qabaqcıl ideyaların carçısı, dövrün, ictimai-siyasi həyatın güzgüsü - "Əkinçi" qəzetinin nəşrə başlaması ilə Azərbaycan milli mətbuatının əsasının qoyulduğunu qeyd edən dövlətimizin başçısı müraciətində bildirib ki, həmin dövrdə bütün Qafqazda böyük əks-səda doğuran bu mühüm tarixi hadisə Azərbaycan maarifçilik hərəkatının inkişafına, milli oyanışa, milli özünüdərkin və düşüncə azadlığının formalaşmasına təkan verib, mütərəqqi jurnalist, publisist və ziyalı nəslin yetişməsində əhəmiyyətli rol oynayıb.

# Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə tədbir keçirilib





***İyulun 22-də Bakıda Medianın İnkişafı Agentliyi tərəfindən Azərbaycan milli mətbuatının 150 illik yubileyi münasibətilə tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mətbuatın 150 illik yubileyi ilə əlaqədar media nümayəndələrinə müraciəti səsləndirilib.***

Müraciəti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oxuyub. Sonra bir qrup media nümayəndəsinə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsis olunmuş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı təqdim











edilib. Daha sonra milli mətbuatın 150 illik yubileyi münasibətilə hazırlanmış videoçarx nümayiş olunub. Tədbir bədii hissə ilə davam edib.

Milli mətbuatın 150 illik yubileyinə həsr olunmuş tədbirdə Azərbaycanın televiziya kanallarının, informasiya agentliklərinin, bir sıra aparıcı çap və onlayn media subyektlərinin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Azərbaycan dünyanın ən inkişaf edən 8-liyinə daxil edilir



Azərbaycanın qazandığı sosial-iqtisadi inkişaf, hərbi, siyasi nailiyyətlər, demokratik dövlət quruculuğu ölkəmizin beynəlxalq aləmdə nüfuzunu yüksək formada artırıb. Xüsusilə də 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam etdirən Vətən Müharibəsində Azərbaycanın 30 il erməni işğalı altında olmuş torpaqlarını azad etməsi dövlətimizin dünya miqyasında hörmətinin, nüfuzunun daha da artmasına təkan olub. Artıq dünyanın əksər ölkələri Azərbaycanla iki və çoxtərəfli əməkdaşlıq əlaqələri qurmağa, müxtəlif strateji sahələr üzrə müqavilələr imzalamağa çalışırlar. Planlar və istəklər də reallaşır. Nəticə etibarı ilə Azərbaycanla yeni əhəmiyyətli dövlətlərarası müqavilələr imzalanır. İmzalanan sənədlər xalqların sosial, iqtisadi maraqlarının təmin olunmasına yeni dividentlər gətirir. Azərbaycanın isə uğurları daha da artır. Ölkəmiz bu baxımdan dünyanın inkişaf edən 8 dövlətdən birinə çevrilir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 11 aprel tarixli andiçmə mərasimindəki çıxışı zamanı bildirmişdir ki, gələcəyə baxmalıyıq: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Prezident İlham Əliyevin qeyd etdiyi məsələlər tam şəkildə reallaşmaqdadır. İqtisadi, sosial, hərbi və diplomatik sahələrdə möhtəşəm uğurlara imza atılır. Təbii ki, uğurlar bundan sonra daha geniş xarakter daşıyıcaq. Çünki işğaldan azad edilən ərazilərdə müasir dövrün prinsiplərinə və qaydalarına uyğun yeni infrastruktur qurulur, zavodlar, fabriklər yaradılır. Zəngəzur dəhlizinin açılması isə bu inkişafın geniş coğrafi ərazini əhatə etməsinə imkanlara yaradacaq.

Xankəndi şəhərində keçirilən III Şuşa Qlobal Media Forumun da Prezident İlham Əliyev çıxışında Zəngəzur dəhlizinin açılacağını və bununla da bölgənin inkişafında yeni dövr başlayacağını bildirdi: "Zəngəzur dəhlizi Cənubi Qafqazda regional sabitliyin, qarşılıqlı inteqrasiyanın və nəqliyyat təhlükəsizliyinin açar elementlərindən biridir. Əgər bu layihə həyata keçərsə, region üçün həm iqtisadi, həm siyasi baxımdan dönüş nöqtəsi ola bilər. Lakin Ermənistanın bu prosesi davamlı şəkildə ləngitməsi onun üçün ciddi nəticələrə gətirib çıxara bilər. Təəssüflər olsun ki, Ermənistan tərəfi son beş ildə Zəngəzur dəhlizi ilə bağlı heç bir praktiki addım atmayıb. Belə olan halda, Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfıra yaxınlaşır. Yəni, regional ticarət yollarından, yük daşımalarından, enerji və nəqliyyat şəbəkələrindən kənarda qalacaq".

## Azərbaycan yeni dünya düzəninin aparıcı dövlətinə çevrilib

Azərbaycan dünyanın aparıcı, müstəqil dövləti olaraq bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla o cümlədən də Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və bir sıra nüfuzlu təşkilatların üzvüdür. Azərbaycan Respublikası həmçinin GUAM regional qrupunun təsisçilərindən biri, fəal üzvüdür. 2019-cu ildən 2023- cü ilə qədər Azərbaycan Qoşulmama hərəkatına sədrlik edib. 25-26 oktyabr 2019-cu il tarixində isə Bakı şəhərində Qoşulmamam Hərəkatının 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşü keçirilib. Tədbirdə 120 BMT üzv dövlətinin yüksək səviyyəli nümayəndələri və 42 beynəlxalq təşkilat nümayəndələri iştirak etmişdir. Bakı Sammiti ilə Hərəkatda Sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. Hərəkatın növbəti sədri olacaq Uqandanın sədrliyi 1 il gec təhvil ala biləcəyini ifadə etməsindən sonra, QH üzv dövlətləri, Hərəkata uğurlu sədrliyini nəzərə alaraq Azərbaycanın əlavə 1 il müddətinə Hərəkata sədrlik etməsi ilə bağlı ölkəmizə müraciət etmiş, Azərbaycan tərəfi də Hərəkatın fundamental prinsiplərinə və dəyərlərinə olan sadiqliyini və mürəkkəb dövrdə Hərəkata səmərəli sədrliklə bağlı qazandığı dəyərli təcrübəni nəzərə alaraq, bu müraciətə müsbət cavab vermişdir.

Beləliklə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi 2023-cü ilə qədər uzadılmışdır. Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı hərtərəfli inkişafa nail olmuşdur. Ümumiyyətlə, fakt ondan ibarətdir ki, Azərbaycanın iştirak etdiyi istənilən beynəlxalq təşkilatda istənilən məsələnin müzakirəsində və qərarların qəbulunda müsbət nəticələr əldə olunur. Təbii ki, beynəlxalq tədbirlər də ilk olaraq Azərbaycanın milli və dövlətçilik marqlarının təmin olunması istiqamətində mühüm addımlar atılır və qarşıda duran məsələlər yüksək səviyyə də təmin olunur. Münhen Təhlükəsizlik Konfransında iştirak edərkən də Prezident İlham Əliyev bir daha Azərbaycanın maraqlarının təmin olunması istiqamətində prinsipial addımlar atdı, açıqlamalar verdi, görüşlər keçirdi. Nəzərə almaq lazımdır ki, Münhen Təhlükəsizlik Konfransı dünyada qlobal miqyasda təhlükəsizlik tədbirlərini nəzərdən keçirir. Konfransda bir sıra dövlətlərin başçılarının, siyasətçilərin aktual problemlərin həlli ilə bağlı mülahizələri və təklifləri dinlənilir, yekun sənədlər qəbul edilir: "Konfrans bütövlükdə "təhlükəsiz dünya" ideyasının reallaşdırılmasına əhəmiyyətli töhfələr verir.

## 2 gün ərzində 24 görüş

Münhen Təhlükəsizlik Konfransında iştirak edən Prezident İlham Əliyevin qarşı tərəflərin müraciətləri əsasında keçirdiyi görüşlər bu gün Azərbaycan və dünya mətbuatında geniş müzakirə edilir. Azərbaycan Prezidentinə görüş üçün dövlət və hökumət başçıları, beynəlxalq aparıcı maliyyə mərkəzləri, nüfuzlu təşkilatların çoxsaylı müraciətləri Azərbaycanın dünyadan getdikcə artan rolu və Prezidentin şəxsi nüfuzunun göstəricisidir. Prezident İlham Əliyev 2 gün ərzində 24 görüş keçirib, daha 10 görüş üçün Azərbaycan tərəfinə müraciətlər olsa da, fiziki olaraq vaxt baxımından onları reallaşdırmaq mümkün olmayıb. Keçirilən görüşlər və bu görüşlərdə müzakirə olunan məsələlərin aktuallığı bir daha Azərbaycanın, onun Prezidenti İlham Əliyevin yüksək hörmətə və nüfuza malik olduğunu təsdiqlədi. Bəzi kənar dövlətlərin Azərbaycanla Ermənistan arasında münasibətlərin sülh müqaviləsinin imzalanması müstəvisinə yüksəldilməsində vasitəçilik etmək istəkləri bu dəfə də iflasa uğradı. Əslində, belə halın yaşanacağı əvvəlcədən gözlənilirdi. Çünki Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasında heç bir vasitəçiyə ehtiyac olmadığını və danışıqların iki ölkə arasında keçirilməli olduğunun vacibliyini qeyd etmişdi. Bəyan etmişdi ki, burada beynəlxalq siyasi iradə mərkəzlərinin vasitəçilik missiyasını ələ keçirməyə can atmasına qətiyyən ehtiyac yoxdur.

Elə məhz Münhen görüşündə də Prezident İlham Əliyev prinsipial mövqeyindən geri çəkilməməklə, iki ölkə arasında keçirilən görüşlərdə vasitəçi formatına qayıdışa qətiyyən imkan da vermədi və buna şərait belə yaranmadı. Bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri arasında keçirilən görüşdə Azərbaycanın maraqlarına uyğun razılaşmaların əldə olunduğu bildirilir. Görüşdə Azərbaycan-Ermənistan dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. İkitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb. Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər.

## Ermənistan konstitusiyadan Azərbaycana qarşı ərazi iddialarını çıxarmalı, həmçinin ATƏT-in Minsk qrupu ləğv edilməlidir

Dövlət rəhbərləri arasına keçirilən görüşlər və aparılan müzakirələr Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına ümidləri artırır. Təbii ki, Ermənistan üzərinə götürməli olduğu bir sıra öhdəliklər və prinsipial əhəmiyyət daşıyan məsələləri həll etsə. Başlıcası Ermənistan konstitusiyadan Azərbaycana qarşı ərazi iddialarını çıxarmalı, həmçinin ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın Xarici işlər naziri Maka Boçorişvili ilə birgə mətbuat konfransında qeyd olunub. Nazir Ceyhun Bayramov bildirdi ki, Ermənistan Azərbaycan və Ermənistan arasında yekun sülhə nail olunması üçün Ermənistanda referendum keçirilərək konstitusiyadan Azərbaycana qarşı ərazi iddialarını çıxarmalı, həmçinin ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Ceyhun Bayramovun sözlərinə görə, referendumun keçirilməsi, həmçinin artıq əhəmiyyətini itirmiş və faktiki mövcud olmayan Minsk prosesi təsisatlarının, o cümlədən Minsk qrupunun ləğvi istiqamətində addımların atılması zəruridir.

Bütün bu kimi addımlar, həyata keçirilən siyasət onu deməyə əsas verir ki, yaxın vaxtlarda Ermənistan Azərbaycanın şərtlərini qəbul edəcək. Bununla da bölgədə son iki yüz ildə müşahidə olunmayan sülhə və təhlükəsizliyə nail olunacaq. Başqa cür siyasət aparmaq Ermənistanın ziyanına ola bilər. Ən azı fərqli mövqe və siyasət Ermənistanın dövlətçiliyini itirməsi ilə nəticələnə bilər.

***İLHAM ƏLİYEV***

# Qəlblərə şəfa, ömürlərə ömür bəxş edən həkim - Dr. İlqar Tahiroğlu





***İnsanın həyatda ən çox dəyər verdiyi şeylərdən biri sağlamlığıdır. Bu dəyər əldən getdikdə isə insanın ilk ümid yeri həkim olur. Ən çətin, üzücü və ümidsiz vəziyyətlərdə biz ağ xalatlılara üz tuturuq. Onlar gecə-gündüz, yorulmadan, yüksək bilik, bacarıq və peşəkarlıqları ilə xəstəyə həyat bəxş edirlər. Həkimin əllərində bəzən bir ömür, bir ailə, bir ümid yatır. Onların gecə-gündüz xəstənin çarpayısı başında ayaq saxlamadan, bilik, təcrübə, əzm və sevgi ilə göstərdikləri xidmət, sözün əsl mənasında, bir həyat hekayəsinə çevrilir. Xəstə şəfa tapanda, gözlərə işıq, üzə təbəssüm qayıdanda sevinən yalnız yaxınlar deyil - bəlkə də ən çox sevinən elə onu həyata qaytaran həkimin özüdür.***

Məhz belə həkimlərdən biri də Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq Dr. İlqar Tahiroğludur. Onun fəaliyyəti, peşəkarlığı, insanlara olan münasibəti, həkimlik sənətinə duyduğu hörmət və sevgi onu tibb ölkəmizdə və xaricdə seçilən simalardan birinə çevirib.

## Təhsilə və inkişaf yoluna sadiqlik

Dr. İlqar Tahiroğlunun uğur yolu təhsilə, zəhmətə və öz üzərində daim çalışmağa əsaslanır. 2010-cu ildə Türkiyənin Ondokuz Mayıs Universitetinin Müalicə işi fakültəsini fərqlə bitirən İlqar həkim, orada kardiologiya üzrə internatura keçərək ilk tibbi təcrübələrini qazanmışdır. Daha sonra, 2015-2019-cu illərdə İsrailin Hadasah Tibb Mərkəzində kardiologiya üzrə rezidentura təhsili almış, 2019-2021-ci illərdə isə intervensional kardiologiya və struktural ürək xəstəlikləri üzrə ixtisaslaşmışdır. Bu təhsil proqramları yalnız nəzəri deyil, həm də praktik biliklər baxımından İlqar həkimin peşəkarlığını daha da gücləndirmişdir.

## Peşəkar fəaliyyət sahəsi - texnologiyanın və insanlığın vəhdəti

İlqar həkimin icra etdiyi müdaxilələr sadəcə prosedur deyil - bu, həyatın özüdür. TAVİ, mitral clip, karotis stent, ASD və PFO qapatmaları, kardiostimulyator implantasiyası, koronar və perifer damar angioplastikası, sağ ürək boşluqlarının hemodinamik kateterizasiyası kimi müasir və mürəkkəb kardioloji prosedurlar onun gündəlik fəaliyyətinin bir hissəsidir. Bu əməliyyatların hər biri minlərlə insanın həyatında dönüş nöqtəsi olur.

## Elm və beynəlxalq uğurlar

İlqar həkim həm də elmə və tibbi biliklərin inkişafına böyük töhfələr verən bir tibb ziyalısıdır. İsrail Ürək Cəmiyyətinin 62, 63, 64 və 65-ci illik konfranslarında iştirak etmiş, 2018-ci ildə mitral klipdən əvvəl və sonra ağciyər arteriya təzyiqi ilə bağlı elmi təqdimatla çıxış etmişdir. Həmin təqdimat XXIV Ümumdünya Exokardioqrafiya və Ürək-Damar Görüntüsü Konqresində böyük maraqla qarşılanmışdır.

O, Londonda keçirilən "TAVI Platforması" üzrə təlimdə sertifikat, 2023-cü ildə İstanbulda Medtronic Akademiyasının təşkilatçılığı ilə keçirilən beynəlxalq TAVİ təlimində isə trener olaraq iştirak etmişdir. Elə həmin il "International Journal of Current Medical and Biological Sciences" jurnalına redaktor təyin olunması isə onun elmi nüfuzunun göstəricisidir.

## Azərbaycan səhiyyəsinə xidmət və gənc nəslə dəstək

2021-ci ildən etibarən İ.M. Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialında müəllimlik edən İlqar həkim, həm də gələcək tibb işçilərinin formalaşmasında mühüm rol oynayır. Onun dərsləri yalnız nəzəri biliklərlə deyil, real klinik təcrübə nümunələri ilə zəngin olduğu üçün tələbələr tərəfindən böyük maraq və hörmətlə qarşılanır.



Dr. İlqar Tahiroğlu 2022-ci ildən Mərkəzi Gömrük Hospitalında Kardiologiya şöbəsinin rəisi vəzifəsində çalışır. Bu müddət ərzində şöbədə tətbiq olunan innovativ yanaşmalar, müasir müalicə protokolları, pasiyent yönümlü xidmət mədəniyyəti onun rəhbərliyi ilə yeni mərhələyə qədəm qoyub.

## Mükafatlar və ictimai nüfuz

İlqar həkim peşəkar fəaliyyəti ilə yanaşı, ictimai səviyyədə də təqdir olunur. O, 2023-cü ildə "Medtronic" firmasının sertifikatı, 2024-cü ildə isə Beynəlxalq Gömrük Günü münasibətilə Ümumdünya Gömrük Təşkilatının Fəxri Sertifikatı ilə təltif olunmuşdur. Bu sertifikat ÜGT-nin baş katibi İan Saunders tərəfindən imzalanaraq İlqar həkimin peşəkar və sosial fəaliyyətinin beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyini təsdiqləyir.

## İnsani keyfiyyətləri ilə sevilən həkim

Həkimlik sənəti yalnız diaqnostika və müalicə deyil - o, həm də bir qəlb işidir. İlqar Tahiroğlunun pasiyentlərinə olan münasibəti - diqqət, anlayış və empatiya ilə müşayiət olunan davranışı - onu fərqləndirir. Onun qəbuluna gələn hər bir insan özünü güvəndə və dəyərli hiss edir. Xəstənin gözü İlqar həkimə çevriləndə, orada həkimdən çox bir dost, bir dayaq görür.

Məhz bu səbəbdəndir ki, İlqar həkim bu gün təkcə təcrübəli kardioloq və şöbə rəhbəri kimi deyil, həm də məsləhətinə, dəstəyinə və şəfasına inanılan bir həkim kimi tanınır. Dr. İlqar Tahiroğlunun qəbuluna yazılmaq üçün: ?? (012) 404-08-08

***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova***



**Elçin Bayramlı**

# Ağacın kökünü qurutmayaq

İnternetin inkişafı media sistemini, formatını, jurnalistlərin iş qaydalarını, hətta deyərdim ki, peşə prinsiplərini tamam dəyişdi. Elektron media sürətlə print medianı sıradan çıxardı. Klassik media yalnız Almaniya, Fransa, Rusiya, Britaniya kimi ənənəvi oxuma vərdişlərinə yiyələnmiş ölkələrdə hələ də müqavimət göstərə bilir.

Azərbaycanda isə yazılı mətbuat yalnız dövlət dəstəyi ilə ayaqda qalır. Dövlət əlini çəksə, bir aya ortada bir qəzet, jurnal qalmaz. Buna görə dövlətə ən azı təşəkkür düşür. Çünki çap mətbuatının yaşaması vacibdir. Qəzet-jurnallar sadəcə mətbuat deyil, bu, həm də yazılı, sənədli tarixdir. İstənilən vaxt istənilən qəzetin istənilən nömrəsini arxivdən götürüb oradan bəhrələnmək olar. Lakin internet saytlar haqda bunu demək olmaz. Onların bazaları tez-tez itir, silinir məhv olub gedir. Şəxsən mənim internetdə indiyədək minlərlə yazım olduğu halda, axtarış verəndə 100-nü tapmaq olmur. Amma qəzet səhifələrində dərc olunmuş bütün yazılarım arxivimdə qalır.

Bizdə çap mediasının reklam bazarı, abunədən və satışdan gəlirləri çox cüzidir. Ona görə də, indiki şəraitdə dövlətin çap mətbuatına maliyyə dəstəyi verməsi vacibdir. Çünki onların öz gücü ilə fəaliyyət göstərməsi mümkün deyil. Xüsusən də, bizim kimi qəzet-jurnal oxumağı bir zərərli vərdiş kimi tərgidən cəmiyyətdə. Belə bir rəqabətli mühitdə çap mediasının fəaliyyəti üçün böyük maddi texniki baza və maliyyə imkanları olmalıdır. Üstəlik, peşəkar kadrlar lazımdır, onlar da aşağı qonorara işləmirlər.

Reklam bazarı yoxdur deyə qəzetlər mütəxəssislərə, peşəkar jurnalistlərə səviyyəli yazılar yazdıra bilmirlər, ucuz işçi qüvvəsi kimi daha çox gənc praktikantları işlətməyə üstünlük verirlər. Üstəlik, çap mətbuatı yeganə media növüdür ki, ona pul ödəmək lazımdır. Razılaşın ki, hər gün 50-60 qəpik verib qəzet almağa çoxunun imkanı yoxdur, olan da almır ki, saytlarda pulsuz oxuyuram. Bir sözlə, klassik mətbuatın müsbət və mənfi tərəfləri var. Lakin tərəziyə qoysaq, müsbət tərəflər daha ağır gələr.

Elektron mediaya gəldikdə burada hər cür imkanlar var. Sadəcə, bu sahədə anarxik vəziyyət olduğundan vəziyyət birmənalı deyil. Bu medianın müsbət tərəflər aydındır- hər bir faktı, hadisəni əhaliyə daha tez çatdırmaq olur, operativlik yüksəkdir, canlı yayım vermək, limitsiz foto və video əlavə etmək, bunu milyonlarla ünvana çatdırmaq, onlayn göndərmək, interaktivlik təmin etmək imkanı var.

Mənfi tərəflər odur ki, hər cür provakativ reklam və təbliğat xarakterli məlumatlar, saxta və dezinformasiya materiallarını yaymaq asan olur. Hətta ümummilli və dövlət əhəmiyyətli proseslərdə təxribatlar da törətmək mümkündür. Dəfələrlə bunun şahidi olmuşuq.

Bir sözlə, internet media müsbət tərəflərindən daha çox mənfi tərəfləri ilə ortadadır. Əksəri diletantlar, reketlər, dələduzlardan ibarət olmaqla minlərlə sayt açılıb xəbər yayır. Çoxu 1-2 nəfərdən ibarətdir- o da sayt adminləri. Peşəkarlıq çox aşağı səviyyədə, maddi texniki baza zəif, əhatə dairəsi və müxbir postları şəbəkəsi yox, dünya informasiya məkanına təsir gücü sıfır vəziyyətdə, heç bir etika, ədəb, mənəvi norma yox. Əlbəttə, istisnalar var.

Bir neçə iri informasiya agentliyi və xəbər portalı var ki, onlarda da vəziyyət qənaətbəxş deyil. Yaydıqlarının 90 faizi hazır rəsmi məlumatlar, əməkdaşların telefonla kimisə danışdırdığı, tədbirlərdən göndərdiyi "o dedi, bu dedi" qəbilindən "eksklüziv" xəbərlərdir. Yaradıcılıq, xəbər axtarışı, problem tapıb ortaya qoymaq, analiz etmək və araşdırmaq payı çox azdır.

Problem fundamental və kompleksdir. Bu, birbaşa dövlət, cəmiyyət və media üçbücağındakı qarşılıqlı vəziyyətlə analoji müstəvidə inkişaf edən bir sistemdir. Dövlət ciddi mətbuata rahat fəaliyyət üçün hər cür imkan yaratmalı, cəmiyyət isə şou mövzuların başını buraxıb ciddi siyasi, iqtisadi, mədəni, elmi mövzularda materialları izləməlidir. İş adamları, şirkətlər çap mediasına reklam verməlidir. Televiziyalar qəzetləri saytları təşviq etməlidir.

Dövlət (Medianın İnfkişafı Agentliyi) öz vəzifəsini yerinə yetirir, klassik mətbuata hər cür dəstək verir, peşəkar jurnalistlərin yetişdirilməsində xidmətlərini göstərir. Qalır cəmiyyətin və jurnalistlərin də mətbuatımızın yaşaması üçün çalışması.

Əgər hər kəs öz rolunu düzgün aparsa, klassik mediamız yaşayacaq. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanacaq. Medianı bir ağaca bənzətsək, qəzetlər onun köküdür. Kökü quruyan ağacdan heç kimə fayda olmaz. Buna görə də, ağacın kökünə su verməli və ağacı qurumağa qoymamalıyıq.

# “Yol həm sosialyönümlü layihədir, həm də iqtisadi layihədir”

## Dövlət başçısının Sərəncamı ilə Hacıqabul-Bəhrəmtəpə-Mincivan Sabirabad avtomobil yolunun əsaslı təmirinə 2,1 milyon manat ayrılıb



Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatları, vaxtında qəbul etdiyi qərarları, qətiyyətli mövqeyi ölkəmizin inkişafında öz sözünü deyir. Verilən vədlər əməli fəaliyyətdə özünü göstərir. Dövlətimiz Ulu Öndər ideologiyası və Onun qoyduğu siyasi xətt üzrə uğurla idarə olunmaqda və inkişaf etməkdədir. Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlərin - xəstəxanaların, yeni yolların, mədəniyyət, xidmət mərkəzlərinin, yeni iş yerlərinin və s. istifadəyə verilməsi ölkəmizdə uğurlu siyasətin məntiqi nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən son illərdə ölkəmizdə yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycanda yol infrastrukturunun inkişafı da dövlətin əsas prioritetlərindən birinə çevrilib. Belə ki, son illər Azərbaycanda, eləcə də paytaxt Bakıda yol infrastrukturunun genişləndirilməsi ilə bağlı mühüm tədbirlər reallaşır. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi sosialyönümlü tədbirlər olmaqla yanaşı, ölkəmizin iqtisadi qüdrətinin də göstəricisidir.

### UZUNLUĞU 3.4 MİN KM TƏŞKİL EDƏN 44 AVTOMOBİL YOLU LAYİHƏSİ İCRA EDİLİR

Son 21 ildə Azərbaycan Respublikasında yol infrastrukturunun inkişafı sahəsində əsas nailiyyətlərdən biri ümumilikdə 20,8 min km uzunluğunda (o cümlədən 6,6 min km respublika əhəmiyyətli, 11,6 min km yerli əhəmiyyətli və 2,6 min km isə Bakı şəhərində) yeni yolların tikilməsi, yenidən qurulması və təmir olunmasıdır. Bundan əlavə, ümumi istifadədə və Bakı şəhərində olan avtomobil yollarında ümumilikdə 335 ədəd körpü və yol ötürücüsü tikilmiş, 56 ədədi təmir edilmiş, 163 ədəd yeraltı və yerüstü piyada keçidi və 45 ədəd tunel tikilmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, işğaldan azad olunmuş ərazilərdə ümumi uzunluğu 3.4 min km təşkil edən 44 avtomobil yolu layihəsi icra edilir ki, onlardan ümumilikdə 0.3 min km (6 layihə tamamilə, 1 layihə isə qismən) tikilib başa çatdırılmışdır. Bakı şəhərində və ətraf ərazilərdə mobilliyin artırılması və nəqliyyat axınının daha səmərəli idarə olunması məqsədilə 4 parklanma zonası üzrə 18 min parklanma yeri yaradılmışdır. Görülmüş işlər nəqliyyat vasitələrinin nizamlı şəkildə parklanmasını təmin etməklə, yollarda nəqliyyat sıxlığının azalmasına, eyni zamanda piyadalar üçün daha təhlükəsiz və rahat mühitin formalaşmasına xidmət edir. Bundan əlavə, beynəlxalq nəqliyyat əlaqələrinin təmin olunması üçün həyata keçirilən M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolu, M-2 Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi avtomobil yolu, 6 M-3 Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu, Şəki-Oğuz-Qəbələ və Füzuli-Şuşa (Zəfər yolu) kimi avtomobil yolu layihələri yüksək keyfiyyətli və təhlükəsiz hərəkət imkanları təqdim etməklə, həm yerli, həm də beynəlxalq tranzit daşımalarının sürətini artırmağa və yükdaşımaların effektivliyini yüksəltməyə kömək etmişdir.

Azərbaycan bu gün Avrasiya məkanında dinamik innovativ inkişaf edən lider dövlət, həm də iki qitə arasında mühüm və ən əlverişli nəqliyyat mərkəzidir. Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Dövlət başçımızın dediyi kimi: ”Yol rahatlıqdır, inkişafdır. Yol olan yerdə inkişaf da var. Yol həm sosialyönümlü layihədir, həm də iqtisadi layihədir”. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Təbii ki, nəqliyyat-yol infrasturukturunun inkişafı və yenilənməsi hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır.

### 15 YAŞAYIŞ MƏNTƏQƏSİNİ BİRLƏŞDİRƏN AVTOMOBİL YOLU

Azərbaycan yol infrastrukturunun inkişaf səviyyəsinə görə beynəlxalq təşkilatların tərtib etdiyi hesabatlarda ön sırada qərarlaşır. Prezident İlham Əliyev ”Sabirabad rayonunun Hacıqabul-Bəhrəmtəpə-Mincivan (10 km)-Sabirabad avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında”

Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, altmış bir min nəfər əhalinin yaşadığı 15 yaşayış məntəqəsini birləşdirən Hacıqabul-Bəhrəmtəpə-Mincivan (10 km)-Sabirabad avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. ”Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil” - deyən Azərbaycan Prezidenti buna nail olmaq məqsədilə yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilməsinə diqqət ayırır. Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir. Bunun nəticəsi olaraq Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

### ARTAN TƏLƏBAT NƏQLİYYAT SİSTEMİNDƏ YENİ ÇAĞIRIŞLAR YARATDI

Bakı şəhərinin 2020-2040-cı illəri əhatə edən Baş Planında qlobal trendlər nəzərə alınaraq, şəhərin perspektiv inkişaf istiqamətləri məhz polisentrik yanaşma əsasında müəyyən edilmişdir. Son 21 ildə ölkə üzrə əhalinin orta illik artım tempi 1% təşkil etdiyi halda, Bakı şəhərində və ətraf ərazilərdə bu göstərici 1.3% olmuşdur. Həmin dövr üzrə Bakı şəhərində hər 1000 nəfərə düşən avtomobillərin sayı 132-dən 320-dək artmışdır. Əhali sayının sürətli artımı şəhərin infrastrukturuna və xidmət sahələrinə, xüsusilə nəqliyyat sektoruna əlavə təzyiq göstərir. Artan tələbat nəqliyyat sistemində yeni çağırışlar yaratmış, bunlara ictimai nəqliyyatın genişləndirilməsi, tıxacların azaldılması və ekoloji cəhətdən davamlı nəqliyyat həllərinin tətbiqi daxildir. Bununla belə, fərdi nəqliyyat vasitələrindən ictimai nəqliyyata və fərdi mobil nəqliyyat vasitələrinə keçid infrastrukturun inkişafından asılıdır. İnfrastrukturun təkmilləşdirilməsi məqsədilə 100 km-dən çox velosiped zolaqlarının inşası, sərnişinlərin ictimai nəqliyyat və digər nəqliyyat vasitələri ilə səyahət təcrübəsinin tam rəqəmsallaşdırılması planlaşdırılıb. Ölkədə nəqliyyat infrastrukturuna investisiyalar qoyulmasına və müxtəlif nəqliyyat növləri üzrə ayrı-ayrı layihələrin icra olunmasına baxmayaraq, nəqliyyat növlərinin koordinasiyalı fəaliyyəti ilə bağlı çatışmazlıqlar müşahidə olunurdu.

Bakı şəhərinin 2040-cı ilədək olan Baş Planında nəqliyyat sisteminin inkişaf konsepsiyasına uyğun olaraq, Böyük Bakı Regionunun nəqliyyat infrastrukturunun inkişafı üzrə vahid konsepsiyanın hazırlanması, şəhərin əsas yollarındakı nəqliyyat yüklənməsinin aradan qaldırılması, şəhərətrafı ərazilərdən nəqliyyat axınlarının idarə edilməsi, şəhərətrafı ərazilərdə yerləşən yaşayış məntəqələri arasındakı yola sərf olunan vaxtın mümkün səviyyədə qısaldılması, nəqliyyat qovşaqlarının yaradılması məsələlərinin həll edilməsi hədəflənib.

### NƏQLİYYAT İNFRASTRUKTURUNUN GÜCLƏNDİRİLMƏSİNƏ TÖHFƏ

Qeyd edək ki, ölkədə son illər ərzində yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli islahatlar həyata keçirilmişdir. Şəhər ərazisindəki yol şəbəkəsinin təkmilləşdirilməsi, yeni yol kəsişmələrinin və körpülərin tikilməsi, həmçinin tıxacların azaldılması məqsədilə müxtəlif layihələr icra edilmişdir. Bakıdakı əsas magistral yollarda təmir və bərpa işləri, habelə yol infrastrukturunun müasirləşdirilməsi yollarda nəqliyyat vasitələrinin artan sayına paralel olaraq aparılmaqdadır. Bakı şəhərində şəhərdaxili və şəhərətrafı sərnişin nəqliyyatını asanlaşdırmaq məqsədilə icra edilmiş Bakı dairəvi avtomobil yolu, Böyükşor-Pirşağı, Zığ-Hava Limanı, Hava Limanı-Mərdəkan-Zuğulba, Böyükşor şosesi, Mərdəkan şosesi, H.Əliyev prospekti, Babək prospekti və 8 Noyabr prospekti layihələri şəhər və ətraf ərazilər arasındakı əlaqələri sürətləndirərək nəqliyyat infrastrukturunun gücləndirilməsinə töhfə vermiş, sərnişinlərin rahat və təhlükəsiz hərəkətinə imkan yaratmışdır. Yol infrastrukturunun qorunması və normalara uyğun olaraq nəqliyyat vasitələrinin oxuna düşən yükə nəzarət məqsədilə magistral yollarda elektron tərəzilər quraşdırılmışdır.

Bütün bunlar Cənab Prezidentin düşünülmüş siyasətin məntiqi nəticəsidir. Ölkəmizin inkişafı istiqamətində həyata keçirilən layihələr öz nəticəsini verir. Respublikamızın bütün sahələrdə böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyəti Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir.

Bu gün həqiqətən də Azərbaycanın hər bir bölgəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizdə bölgələrin sosial-iqtisadi inkişafı başlıca prioritetlərdən biri kimi müəyyənləşdirilib, qarşıya qoyulan hədəflərə uyğun olaraq bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi davamlı xarakter daşıyır.

Bu gün ölkəmizdə avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə kompleks tədbirlər icra olunur. Bu baxımdan, yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri xüsusi əhəmiyyəti ilə seçilir. Görülən işlər ümumilikdə paytaxtımızın nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə töhfə verir.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

# Dmitri Solonnikov: Bakı haqlıdır, sülh sazişi imzalanması üçün Ermənistan Konstitusiyası dəyişməlidir

"Bakının İrəvanla sülh sazişinin imzalanması təşəbbüsü Azərbaycanın nəhayət normallaşma prosesini məntiqi sonluğa çatdırmaq istəyidir"







***Azərbaycanın Ermənistanla dövlətlərarası münasibətlərin qurulmasına dair sazişin (sülh müqaviləsinin yekun bağlanmasına qədər ilkin müvəqqəti imzalanması - redaktorun qeydi) paraflanması məsələsi gündəmdədir.***

Bu barədə iyulun 19-da Azərbaycan prezidenti İlham Əliyev Şuşa Media Forumunda çıxışı zamanı deyib. Dövlət başçısı qeyd edib ki, iyulun 10-da liderlərin Əbu-Dabidə danışıqları zamanı Ermənistanın baş naziri Nikol Paşinyanla bu məsələ müzakirə olunub.

Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov bu təşəbbüs ilə bağlı vəziyyəti "Moskva-Baku" portalına şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

- Azərbaycan hakimiyyəti başa düşür ki, Ermənistan konstitusiyanı burada və indi dəyişməyəcək, burada və indi ondan Azərbaycana ərazi iddialarını istisna etməyəcək və bunun üçün vaxt lazımdır. Sülh müqaviləsinin paraflanması təklifi Bakının imic addımıdır, Azərbaycanın sülh prosesinin əsas təşəbbüskarı və mühərriki olduğunu nümayiş etdirmək cəhdidir. Bu, Azərbaycanın Ermənistana qarşı xoşməramlı addımıdır. Və ideal bir həllin əldə edilməsinin hələ mümkün olmadığı anlayışı fonunda məntiqli bir qərardır.

Aydındır ki, paraflama Bakı ilə İrəvan arasında sülh müqaviləsinin yekun imzalanmasının sürəti ilə bağlı vəziyyətə əsaslı təsir göstərməyəcək. Amma bu, hər iki tərəfin nəhayət münasibətləri normallaşdırmaq istəyinin jesti olacaq. Azərbaycan Prezidentinin Administrasiyasında bildirildiyi kimi, paraflama Azərbaycana ərazi iddialarının Ermənistan Konstitusiyasından çıxarılması ilə bağlı Bakının İrəvana tələblərinin sonradan yerinə yetirilməsindən və strukturun Minsk Qrupunun hüquqi müstəvidə ləğvi ilə bağlı ATƏT-ə müraciətin birgə təqdim edilməsindən əvvəl olacaq. Üstəlik, İrəvan son vaxtlara qədər təkrar edirdi ki, Ermənistan Azərbaycana sülh müqaviləsi imzalamağı təklif edir və Bakı demək olar ki, bundan imtina edir. Bu, belə məlumat sızmasının təkzibi olardı.

Azərbaycanın ərazi iddialarının Ermənistan Konstitusiyasından çıxarılması tələbi ədalətlidir. İlham Əliyev media forumunda bir daha vurğulayıb ki, sülh prosesində müsbət tendensiyalar olsa da, Ermənistana etimad yoxdur. Əvvəllər erməni tərəfinin əks bəyanatlar verməsi nümunələri var idi. Ona görə də Bakı ərazi iddialarının Konstitusiyadan çıxarılmasını Ermənistanla nəhayət tam hüquqlu sülh sazişi imzalaması tələbi kimi qarşıya qoyur.

Acı tarixi təcrübəyə malik olan Bakı gələcəkdə riskləri minimuma endirmək üçün Ermənistanla dövlətlərarası münasibətlərin qurulması məsələsində hər şeyi hüquqi cəhətdən düzgün etmək, hər şeyi dəqiq etmək istəyir ki, Ermənistanın gələcək potensial hakimiyyət orqanlarının hansısa yolla imzalanmış sülh müqaviləsindən imtina edə biləcəyi "pəncərələr" olmasın. Dünya tendensiyalarının göstərdiyi kimi, hər şeyi tərsinə çevirmək olar.



Təbii ki, müsbət ssenari nəzərə alınarsa, Ermənistanın hazırkı baş nazirinin Azərbaycana qarşı ərazi iddialarını ölkə Konstitusiyasından çıxarmaq şansı yüksəkdir. Hələlik İrəvan deyir ki, Konstitusiya ilə bağlı referendum 2027-ci ildə keçiriləcək. Bu, kifayət qədər uzun müddətdir və bu müddət ərzində hər şey ola bilər. Paşinyan bu yolla gedir, amma çox yavaş və çox ehtiyatla öz addımlarını atır.

Ermənistanın daxili gündəmi Ermənistan-Azərbaycan nizamlanmasının sürətinə təsir etməkdə davam edir. Müxalifət revanşist mövqe tutur. Bütün bunların fonunda Paşinyan alternativ gündəmi təbliğ edir, o, Bakı ilə birbaşa qarşılıqlı əlaqəni daha fəal surətdə həyata keçirir, öz fəallığını və erməni xalqının daha yaxşı gələcəyi naminə məsələləri həll etdiyini, "əsl Ermənistan" gündəliyinin aktual olduğunu sübut etməyə çalışır.



***Tərcümə - Elçin***



## Bizim qələm...

**MƏTANƏT**

O qələm ki, bizi böyük bir ordunun əsgərinə çevirib, sadəcə əlində silah deyil, qələmi olan əsgərlərə... O qələm ki, bəzən silah qədər kəskindir, hədəfə onun qədər dəqiq vurur. Kimlərinsə səhvinə, kimlərinsə yanlışına, kimlərinsə köhnə kənddə yeni dəbinə, haramına, xəyanətinə, pis mövqeyinə, nəfsinə tuşlanır. Vurur hədəfə, dağıdır, parçalayır. Milli dəyərlərimizi yaşatmaq uğrunda mübarizə aparır. Ailə dəyərlərimizi qorumaq üçün mübarizəyə qalxır. Cəmiyyətimizin, dövlətçiliyimizin qorunması üçün mübarizə meydanına çıxır o qələm.

Bəzən qələmimiz ana sığalına çevrilir. Ətrafdakı gözəllikləri tərənnüm edir. Gözəl ənənələri bəzəyir. Uğurları al-əlvan güllərə qərq edir. Yol göstərir, məsləhət verir, tövsiyə edir.

Bəzənsə əsrlərin o başından bu başınadək yola çıxır qələmimiz. Xatırlayır olanları-keçənləri. Həyatımızda izi, sözü, əməli qalanları anır. Onları o əsrdən bu əsrə qonaq gətirir. Yenidən dünyaya bəxş edir. Onlardan bəhs edir. Yubileyini, doğum gününü, anım tarixini qeyd edir. Yaşadır qələmlər minlərlə insanı: öz dəyərləri, zəhməti, yaddaşlara saldığı izlərlə...

Qələm deyəndə tək kağız üzərinə mürəkkəb salan bir əşya düşünməyin. Qələm həm də canlıdır: müəllimdir-yol göstərir, tərbiyə edir. Həkimdir-müalicə edir, sağlamlığa çağırır. Əsgərdir-döyüşür, düşmənlə mübarizə aparır. Torpaq uğrunda mücadilə edir. Şəhid verir, Qələbə qazanır. Sonra da bu qələbəni tarixin bu başından o başına götürür. Salnaməléşdirir, tarixləşdirir. Qələm hüquq mühafizəçisidir-hüquqlardan bəhs edir, bilməyənə hüquqlarını izah edir, polisdir-asayişi qoruyur, sərhədçidir-ərazi bütövlüyü uğrunda qələmdən süngərə çevrilir.

Qələm mühəndisdir-tikir, ucaldır, qurur-yaradır. Sonra da kənardan tamaşasına dayanır. Vəsf edir, gözəlliyi gözləri ilə görməyi, qiymət verməyi bacarır...

Qələm ata-anadır, bir evin böyüyü-ağsaqqalı-ağbirçəyidir. Ənənələri qorumağı tövsiyə edir, yol gözləməyə, keçmişdən bu günə yaşananları yaşatmağa çağırır. Böyüyün-kiçiyin yerini göstərir. Doğru davranışı təbliğ edir.

Qələmi əsla cansız bir əşya hesab etməyək. O, canlıdır, həyat doludur... Onu əlinə alanlar isə bizlərik-jurnalistlər. Qəlbimizdən, ruhumuzdan axanları qələmin yazmasına hökm verənlərik. Bir baxışla bəlkə də yüzlərlə insanın görmədiyini görənlər, sezmədiyini sezənlərik. Odur ki, çox həssasıq. Bu həssaslıq bəzən ömrümüzü yarıda qoyur. Bu peşə bəzən həyatımızı tam yarıda nöqtələyir.

Çətindir, lakin şərəflidir. Onu yarıda qoyub qaçanlar da olur. Çətinliyinə tab gətirməyənlər də olur. Lakin bizlər tab gətirənlər, peşəmizlə qürur duyanlarıq. Seçilib bu peşədə qalanlar, onun ağırlığını çiyinlərimizdə daşıyanlarıq. Odur ki, bayramı mübarək olsun, bu peşədə qalanların, olanların. Qoy qələmimiz iti, sözümüz kəsərli olsun.

# Ukraynanın, yoxsa Rusiyanın 50 günü?

***ABŞ prezidenti Donald Trampın ölkəsinin artıq Ukraynaya pulsuz və birbaşa silah verməyəcəyini açıqlamasından sonra ilk dəfə olaraq Ramşteyn formatında - Ukrayna ordusuna yardım edən ölkələrin müdafiə nazirlərinin görüşü keçirilib. Pentaqonun rəhbəri Pit Heqset görüşdə iştirak etməyib. Buna baxmayaraq, görünür, Trampın təklif etdiyi Ukraynanın silahlanması sxemi təsdiqlənib. Böyük Britaniyanın müdafiə naziri Con Healey Kiyevə 50 günlük intensiv silah tədarükü kampaniyasına başladığını elan edib.***



Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupu (başqa cür Ramşteyn formatı kimi tanınır - ilk iclasının keçirildiyi Almaniyadakı Amerika bazasının adından sonra) bu dəfə onlayn görüşüb. 52 ölkənin nazirlikləri və baş qərargahlarının nümayəndələri mahiyyət etibarilə Trampın iyulun 14-də elan etdiyi təşəbbüsləri müzakirə etmək və onların əsasında qərarlar qəbul etmək üçün toplaşıblar. Xatırladaq ki, Amerika prezidenti Ukrayna ilə münaqişəni dayandırmaq üçün Rusiyaya 50 gün vaxt verdiyini açıqlamışdı. Bu baş verməsə, Tramp Rusiyanın enerji resurslarını alan ölkələrin mallarına qadağanedici rüsumlar tətbiq edəcək. Niyə prezident konkret olaraq 50 gün danışdı, ümumiyyətlə, əsaslı təxminlər irəli sürmək olardı. Ola bilsin, o, neft hasilatını ardıcıl olaraq artıran OPEC+ ölkələrinin (Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Qazaxıstan, Küveyt, BƏƏ, Əlcəzair və Oman) sentyabr ayına qədər onları o qədər artıracağını gözləyir ki, neftin qiyməti xeyli aşağı düşəcək. O zaman Rusiya neftinin, ilk növbədə Hindistanın alıcıları öz enerji idxalında Rusiyanın payını əvəz etmək üçün Amerikanın tələbinə cavabdeh olacaqlar.

Trampın təşəbbüsünün digər hissəsində daha az aydınlıq var idi. O, bəyan edib ki, indi ABŞ-ın NATO müttəfiqləri Amerika silahlarını alacaq və sonra onları Ukraynaya verəcək və ya Kiyevə çatdırılan arsenalların analoqları müqabilində saxlayacaq. Bəziləri və bəlkə də NATO üzvlərinin əksəriyyəti üçün bu, sürpriz oldu. Onlardan bəziləri Ukrayna üçün Amerikadan silah almayacaqlarını bəyan ediblər. İştirakçılarının Trampın təşəbbüsü ilə təfərrüatı ilə tanış olacağı Ramstein onlayn görüşü bütün i-ləri nöqtələnə və bütün t-ləri keçə bilərdi. Onun nəticələri yeni silah satınalma sxeminin sadəcə spekulyativ konstruksiya olaraq qalıb-qalmayacağına aydınlıq gətirəcək.

Ukraynanın müdafiə naziri Denis Şmıxal görüş iştirakçıları qarşısında çıxış edərək, ölkəsinin Trampın təşəbbüsünü qəbul etdiyini və Ramstein formatının üzvlərindən də eyni şeyi istədiyini açıqlayıb. O, Ukrayna üçün "təcili olaraq Amerika silahlarının, ilk növbədə "Patriot" zenit-raket komplekslərinin alınmasını istəyib. Almaniyanın müdafiə naziri Boris Pistorius jurnalistləri əmin edib ki, onun ölkəsi bu sistemlərdən beşinin Kiyevə tez bir zamanda təqdim olunmasına "töhfəsini verəcək". Onun sözlərinə görə, o, artıq Heqsetlə bu barədə razılığa gəlib. Ehtimal etmək olar ki, Almaniyaya və onun vasitəsilə Ukraynaya ABŞ-ın əvvəllər İsveçrəyə təhvil verəcəyi Patriot hava hücumundan müdafiə sistemləri ilə təchiz edilməsi planlaşdırılır. Düzdür, Pistorius əsas məsələ - bu silahların Ukrayna hərbçilərinə nə vaxt veriləcəyi barədə heç nə deməyib.

Amerika müdafiə departamentinin rəhbəri isə görüşdə iştirak etməyib. ABŞ-ı orada NATO-dakı daimi nümayəndəsi Metyu Uitaker təmsil edib. Hegseth ardıcıl ikinci dəfə Rammstein tədbirini buraxıb. Beləliklə, o, Ukraynaya yardımın səbəbini amerikalılar deyil, ilk növbədə Avropalılar hesab etdiyini dəfələrlə vurğulayan Trampın sadiq davamçısı kimi özünü göstərib. İclasda səslənən ən səs-küylü bəyanat, təbii ki, Healy-ə məxsusdur. Böyük Britaniyanın müdafiə naziri Trampın sülhə nail olmaq üçün ayırdığı 50 günü xatırladaraq deyib ki, "biz də öz növbəmizdə Putini danışıqlar masasına oturtmaq üçün Ukraynanı döyüş meydanında silahlandırmaq üçün 50 günlük kampaniyaya qoşulmalıyıq".

Silahların tədarükü ilə bağlı konkretliklər mətbuata qapalı formatda təbii olaraq müzakirə edilib. Buna görə də, Rammstein formatının iştirakçılarının dəqiq nəyə razılaşdıqları sonra aydın olacaq. Şmıxalın sözlərinə görə, Ukrayna yeni silah təchizatı sxeminin necə həyata keçirilməsindən asılı olmayaraq, onun birbaşa Ukrayna büdcəsindən ödənilməməsini gözləyir. Müdafiə naziri qeyd edib ki, ölkəsinin bu il hərbi satınalma ehtiyacını ödəmək üçün 6 milyard dollara ehtiyacı var. Şmıxala görə, bu pulu Qərb təmin etməlidir. Göründüyü kimi, Ukrayna rəhbərliyi əslində Trampın ultimatumunun öz məqsədinə çatacağına inanmır. Əks halda, Şmıxal "Rammstein" iştirakçılarına gələn il Ukraynaya silah tədarükünün maliyyələşdirilməsinin davam etdirilməsinin zəruriliyi barədə deməzdi.

## Qərb müttəfiqləri razılığa gələ bilmirlər

Ukraynaya hərbi təchizatla bağlı Ramşteyn formatında təmas qrupu prezident Trampın Kiyevi avropalı müttəfiqlərinin pulu ilə silahlandırmağa başlamağa söz verdikdən sonra ilk iclasını keçirib. Onlayn görüşün əsas mövzusu Londonun "Ukraynanı silahlandırmaq" üçün 50 günlük kampaniya keçirmək təşəbbüsünün müzakirəsi olub. Böyük Britaniya və Almaniya Ramstein formatını canlandırmağa çalışırlar, lakin yeni problem Ukraynaya yardımın necə davam etdiriləcəyi və bunun əvəzini kimin ödəməsi ilə bağlı kəskin fikir ayrılıqlarına çevrildi. Fransa və İtaliya NATO rəhbərliyi tərəfindən dəstəklənən Trampın planının əleyhdarları düşərgəsindədir.

Ramşteyn formatında onlayn görüş Britaniya və Almaniyanın rəhbərliyi altında keçirilib: bu ölkələrin liderləri - baş nazir Keir Starmer və kansler Fridrix Merz Ukraynanın dəstəklənməsində onlardan kimin aparıcı rola malik olduğuna hələ qərar verə bilmirlər. Ramşteyn formatında onlayn görüş Britaniya və Almaniyanın rəhbərliyi altında keçirilib: bu ölkələrin liderləri - baş nazir Keir Starmer və kansler Fridrix Merz Ukraynanın dəstəklənməsində onlardan kimin aparıcı rola malik olduğuna hələ qərar verə bilmirlər. Bayden administrasiyası ilə ABŞ-ın rəhbərliyi ilə yaradılmış və prezident Trampın Vaşinqtonda hakimiyyətə gəlməsindən dərhal sonra Amerika liderliyini itirmiş Ramstein əlaqə qrupunun iyulun 21-də Böyük Britaniya və Almaniyanın rəhbərliyi ilə onlayn formatda yeni iclası keçirilib. NATO-nun baş katibi Mark Rutte və Avropadakı Müttəfiq Qüvvələrin rəhbəri Aleksus Qrinkeviçdən əlavə, 52 ölkənin müdafiə nazirləri və onların müavinləri səviyyəsində keçirilən toplantının daha bir əsas iştirakçısı ilkin olaraq Pentaqonun rəhbəri Piet Heqset elan edilmişdi, o da sonda müzakirələrə qoşulmayıb. O, iyunun əvvəlində keçirilən Rammstein formatının əvvəlki iclasında da iştirak etməyib. Bazar ertəsi təmas qrupunun iclasında Amerika tərəfini ABŞ-ın NATO-dakı daimi nümayəndəsi Metyu Uitaker təmsil edib, prezident Tramp ona Avropa NATO ölkələri tərəfindən Ukrayna üçün silah alışını koordinasiya etməyi tapşırıb.

Ukraynalı iştirakçılar qrupuna bu yaxınlarda Milli Təhlükəsizlik və Müdafiə Şurasının sədri vəzifəsinə təyin edilmiş keçmiş müdafiə naziri Rustem Umerov və əvvəllər Ukraynanın baş naziri vəzifəsində çalışmış yeni müdafiə naziri Denis Şmıxal da olub. "Ukraynaya bu il silah alışındakı fərqi aradan qaldırmaq üçün 6 milyard dollar lazımdır", - Denis Şmıxal onlayn görüş iştirakçılarına müraciət edərək deyib. Onun çıxışından göründüyü kimi, bu vəsait Kiyevə cəbhə xəttini saxlamaq üçün daha çox pilotsuz təyyarələr və Rusiya pilotsuz təyyarələrinə qarşı durmaq üçün ələ keçirən dronlar istehsal etməyə imkan verəcək. Bundan əlavə, Denis Şmıxal Avropanı Kiyevə çatdırılmaq üçün Amerika "Patriot" raketlərinin tədarükünə hazırlaşmağa çağırıb.

Pete Hegseth-in olmamasına baxmayaraq, Vaşinqtonun avropalı müttəfiqləri prezident Trampın Baydenin bu layihəsindən uzaqlaşmaq cəhdlərindən sonra onun "Ramstein"a doğru addım atmaq istəyini həvəslə qarşılayıblar. Bu vəziyyətdə "Ramstein"ın yeni "aparıcısı" Böyük Britaniyanın müdafiə naziri Con Healey olub. O, təmas qrupunun üzvlərinə Trampın Avropa vasitəsilə Ukraynaya Amerika silahlarının tədarükü planını dəstəkləməyi təklif edib. Tramp iyulun 14-də Ukraynada hərbi əməliyyatların dayandırılması üçün 50 günlük müddət təyin etsə də, Britaniya rəhbərliyi eyni müddət ərzində Rusiya ilə qarşıdurmanın davam etdirilməsinə hazırlaşmaq üçün hər cür səy göstərmək niyyətindədir. "ABŞ 50 günlük geri sayıma başlayıb. Biz də öz növbəmizdə Ukraynanın silahlandırılması üçün 50 günlük kampaniya çərçivəsində səyləri gücləndirməliyik", - Con Healey onlayn görüş iştirakçılarına müraciət edərək deyib.

Bloomberg mənbələrə istinadən Londonun Ukraynanın silahlanması üzrə təmas qrupunda gələcək rolunun nə ola biləcəyini izah edib. Bloomberg qeyd edir ki, "Böyük Britaniyanın töhfəsi Almaniya ilə "Patriot" hava hücumundan müdafiə raket sistemlərinin (SAM) birgə alınmasında və ya ABŞ-dan Ukrayna üçün ayrıca digər silah və sursatların alınmasında ifadə edilə bilər" və əlavə edib ki, "hər iki variant nəzərdən keçirilir".

Agentliyin məlumatına görə, London, Berlin və Vaşinqton arasında bu məsələ ilə bağlı danışıqlar "ilkin mərhələdə olsa da", Britaniya hökuməti Trampın sxemini həyata keçirmək üçün Almaniyaya qoşulmaq qərarına gəlib. Bütün bunların fonunda Almaniya rəhbərliyi israr etməkdə davam edir ki, kansler Merz vəzifəyə gəldikdən sonra Ukraynanın dəstəklənməsi və ABŞ-ın yeni prezidenti ilə əlaqələrin qurulmasında aparıcı rol Berlinə keçib. Bunu Almaniyanın xarici işlər naziri Yohan Vadeful "Bild" qəzetinə müsahibəsində deyib. "Bütün Avropa Ukraynanın tərəfindədir və ABŞ da dəstəyini davam etdirməyə hazırdır. Bu, böyük ölçüdə Almaniya kanslerinin təşəbbüsü sayəsində baş verib", - Yohan Vadeful qeyd edib. "Fridrix Merz bunda böyük rol oynayıb, çünki o, Ukraynanın müdafiəsinə qalxdığını əvvəldən açıq şəkildə bəyan edib", - Almaniyanın xarici işlər naziri əlavə edib. Onun fikrincə, məhz kansler Merz öz inadkarlığı ilə prezident Trampı danışıqları zamanı Kiyevə hərbi yardımın davam etdirilməsinin avropalı tərəfdarlarına doğru addım atmağa inandıra bilib.

## Ukrayna hökumətində dəyişikliyin səbəbi?

Lakin NATO rəhbərliyi tərəfindən dəstəklənən Vaşinqtonun bu siyasi direktivinin praktikada necə işləyəcəyi hələ də tam başa düşülməyib. "Ukraynaya ötürülən Avropa silah sistemlərinin, o cümlədən "Patriot" batareyalarının Amerika ehtiyatlarından necə dəyişdiriləcəyi məsələsində aydınlığa nail olmaq lazımdır", - kansler Merz keçən həftə Britaniyanın baş naziri Keir Starmerlə birgə mətbuat konfransında deyib. Prezident Trampın planının həyata keçirilməsini bir sıra Avropa ölkələrinin Ukrayna üçün Amerika silahları almaqdan imtina etməsi də çətinləşdirir. Hazırkı situasiyalı "istəksizlər koalisiyasına" Fransa, İtaliya, Çexiya və Macarıstan daxildir. Keçən həftə prezident Zelenski ilə bir saatlıq söhbət zamanı Fransa prezidenti Emmanuel Makron açıq şəkildə bildirib ki, Paris Ukraynanın hava hücumundan müdafiəsini gücləndirmək üçün Kiyevi öz hərbi-sənaye kompleksinin məhsulları ilə Amerika silahları almağa əl atmadan təmin etmək iqtidarındadır. Avroatlantik müttəfiqlərin düşərgəsindəki fikir ayrılıqlarını şərh edən Vladimir Putinin mətbuat katibi Dmitri Peskov isə qeyd edib ki, "bir sıra Avropa ölkələrinin anti-Rusiya və militarist ekstazı Qərbdə ümumi anlaşma tapmır". Cənab Peskovun sözlərinə görə, "Amerikalılar istehsal edir, sənayesini sürətləndirir, iqtisadiyyatları üçün iş yerləri yaradır və bunun üçün pul alırlar" ilkin sxemi bütün avropalılara yaraşmır. "Və bütün bunlar deyilən kimi ertəsi gün eşidirik: əvvəlcə İtaliya ödəmək istəmir. Sonra Fransa ödəmək istəmir. Sonra Çexiya ödəmək istəmir. "Bu, dərin ziddiyyətlərdən xəbər verir", - Vladimir Putinin mətbuat katibi "Rossiya 1" telekanalının jurnalisti Pavel Zarubinə müsahibəsində bildirib.

**V.VƏLİYEV**

# Üçüncü dəfədir ki, belə bir mühüm tədbir Qarabağda keçirilir

**44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın beynəlxalq münasibətlər sistemində çəkisi əhəmiyyətli dərəcədə artdı. Bu qələbə təkcə ərazi bütövlüyünün bərpası ilə yekunlaşmadı, həm də beynəlxalq hüququn tətbiqinə dair praktik presedent yaratdı. Azərbaycanın siyasi iradəsi artıq təkcə regionda deyil, qlobal miqyasda da qəbul olunan fakta çevrildi. III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşün bu il ilk dəfə Xankəndi şəhərində keçirilməsi həm siyasi, həm mənəvi, həm də strateji baxımdan tarixi əhəmiyyət daşıyır. Azərbaycan artıq öz haqlı mövqeyini yalnız beynəlxalq təşkilatlarda deyil, elə tarixi torpaqlarımızda, azad edilmiş şəhər və kəndlərimizdə dünya ictimaiyyətinə çatdırır:**

Prezident cənab İlham Əliyevin Forumda səsləndirdiyi hər fikir, verdiyi hər cavab təkcə diplomatik ritorika deyildi, xalqın iradəsi, dövlətin hüquqi mövqeyi və ədalətin səsi idi. Azərbaycan lideri öz çıxışında beynəlxalq media nümayəndələrinə açıq və şəffaf mesajlar verdi, regionda sülhün və əməkdaşlığın real ünvanının məhz Azərbaycan olduğunu vurğuladı.

Prezident İlham Əliyevin Forumdakı çıxışı Azərbaycanın diplomatik fəlsəfəsini və xarici siyasət istiqamətlərini aydın şəkildə nümayiş etdirdi. Dövlət başçısı daxili sabitlik, çevik təhlükəsizlik yanaşması və strateji planlama əsasında formalaşan bir inkişaf modelindən bəhs etdi. Onun fikrincə, Azərbaycanın coğrafi mövqeyi risklərin erkən mərhələdə proqnozlaşdırılması və neytrallaşdırılmasında mühüm amildir.

Azərbaycanın həm Avropa, həm də İslam dünyası ilə paralel əlaqələr saxlaması onu



*Almaz HƏSRƏT*
*Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru*

unikallıq baxımından geosiyasi körpü statusuna yüksəldir. Beynəlxalq jurnalistlərin Xankəndidə, daha öncə isə Şuşada keçirilən tədbirlərdə iştirakı, azad edilmiş ərazilərdə görülən bərpa və yenidənqurma işlərini yerində izləməsi, Azərbaycanın şəffaf siyasət yürütdüyünün bariz göstəricisidir: "Ölkəmizdə media üçün açıq mühitin yaradılması, xarici jurnalistlərin işğaldan azad edilən torpaqlara səfərlərinin təşkili Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm əhəmiyyət kəsb edir. III Şuşa Qlobal Media Forumu eyni zamanda, Ermənistanın illər boyunca dünya ictimaiyyətinə təqdim etdiyi təhrif olunmuş informasiyalara qarşı effektiv informasiya platforması rolunu oynadı. Qonaqların gördüyü reallıq - dağıntılarla yanaşı, sürətli yenidənqurma və həyatın geri dönüşü Azərbaycanın sülhə və inkişafa yönəlmiş siyasətini əyani şəkildə nümayiş etdirdi".

Prezident cənab İlham Əliyev Forumdakı çıxışında Ermənistanla sülh prosesinə dair mövqeyini də bir daha diqqətə çatdırdı: Dövlətimizin başçısı növbəti dəfə açıq şəkildə bəyan etdi ki, sülh sazişinin imzalanması üçün Ermənistan Konstitusiyasında dəyişiklik edilməli və Azərbaycana qarşı ərazi iddialarına son verilməlidir. Eyni zamanda, artıq funksiyasını itirmiş ATƏT-in Minsk qrupunun da ləğvi zəruridir. Hesab edirəm ki, bunlar gələcəkdə iki ölkə arasında etimad mühitinin yaranması üçün mühüm addımdır. Dövlətimizin başçısı bildirib ki, sülh sazişinin əsas mətni artıq razılaşdırılıb və bu sənədin paraflanma mərhələsi də Azərbaycan tərəfindən təklif olunub. Bu isə onu göstərir ki, Azərbaycan tərəfi regionda uzunmüddətli sabitliyin və əməkdaşlığın bərqərar olması üçün səmimi şəkildə sülhə çalışır. Ermənistan da əgər doğrudan da sülh istəyirsə, bunu yalnız bəyanatlarda deyil, əməli addımlarda göstərməlidir. Azərbaycan lideri İlham Əliyev III Şuşa Qlobal Media Forumu çərçivəsində keçirilən görüşdə region üçün əhəmiyyət kəsb edən bir sıra strateji məsələlərə toxunaraq Zəngəzur dəhlizi ilə bağlı proseslərin ləngiməsi və Ermənistan tərəfindən bu istiqamətdə heç bir addım atılmaması ilə bağlı narahatlığını da ifadə edib:

"Zəngəzur dəhlizi Cənubi Qafqazda regional sabitliyin, qarşılıqlı inteqrasiyanın və nəqliyyat təhlükəsizliyinin açar elementlərindən biridir. Əgər bu layihə həyata keçərsə, region üçün həm iqtisadi, həm siyasi baxımdan dönüş nöqtəsi ola bilər. Lakin Ermənistanın bu prosesi davamlı şəkildə ləngitməsi onun üçün ciddi nəticələrə gətirib çıxara bilər. Təəssüflər olsun ki, Ermənistan tərəfi son beş ildə Zəngəzur dəhlizi ilə bağlı heç bir praktiki addım atmayıb. Belə olan halda, Ermənistanın nə vaxtsa tranzit ölkəyə çevrilmək şansı sıfra yaxınlaşır. Yəni, regional ticarət yollarından, yük daşımalarından, enerji və nəqliyyat şəbəkələrindən kənarda qalacaq."

Bildiyiniz kimi, Azərbaycan öz ərazisindən keçən hissədə bütün əsas infrastruktur işlərini yüksək sürətlə həyata keçirib. Dəhlizin Azərbaycan hissəsinin tikintisi faktiki olaraq yekunlaşmaq üzrədir. Bu, ölkəmizin zəmanətli strateji iradəsinin və planlı inkişaf modelinin göstəricisidir. Eyni zamanda, Azərbaycan tərəfi Zəngəzur dəhlizini yalnız iqtisadi layihə kimi deyil, bölgədə sabitliyin və qarşılıqlı etimadın təməli kimi görür. Prezident cənab İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı fikirləri bu baxımdan təkcə xəbərdarlıq deyil, həm də sülhə, əməkdaşlığa və sağlam gələcəyə açıq dəvətdir.

Nəticə etibarilə, III Şuşa Qlobal Media Forumu Azərbaycanın beynəlxalq sistemdə təkcə iştirakçı deyil, təşəbbüskar və formalaşdırıcı aktor statusunu nümayiş etdirdi. Bu Forum yalnız medianın gələcəyi ilə bağlı qlobal müzakirə platforması deyil, həm də Azərbaycanın artan yumşaq gücünün ifadəsidir.

Ən önəmlisi isə odur ki, Azərbaycan bu gün təkcə regional deyil, qitələrarası fikir mübadiləsinin, enerji təhlükəsizliyinin və sülh təşəbbüslərinin yeni mərkəzinə çevrilir. Bu Forum isə həmin transformasiyanın, sadəcə başlanğıcı deyil, artıq gerçəkləşən strategiyanın qlobal təqdimatıdır. III Şuşa Qlobal Media Forumu bir daha göstərdi ki, Azərbaycan artıq yalnız regional deyil, qlobal məsələlərin müzakirəsində və həllində fəal iştirakçıdır.

# Cəmiyyətin inkişafına töhfələr vermiş milli mətbuat

***"Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir."***

***Ulu Öndər Heydər Əliyev***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 aprel 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd olunması ilə bağlı verdiyi Sərəncam ölkəmizdə Azərbaycan mediasına verilən yüksək dəyərin və jurnalistika sahəsində çalışanlara göstərilən hörmətin açıq təzahürüdür. Bir əsr yarım şərəfli yol keçən Azərbaycan mətbuatı dövlətçilik tariximizin inkişafında misilsiz rol oynayıb. Azərbaycan xalqının milli dirçəliş dövrünə qədəm qoyması, dövlət və dövlətçilik dəyərlərinin formalaşması, milli şüurun oyanışı və özünüdərk prosesində milli mətbuatın rolu böyük və əvəzolunmazdır.

Azərbaycanda milli mətbuatın, ana dilində ilk qəzetin nəşrə başlamasının 150 ili tamam olur. 1875-ci ilin 22 iyulunda görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabinin əsasını qoyduğu "Əkinçi" qəzeti ilə xalqımızın milli oyanışında yeni səhifə açılıb. 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb. Bu qəzetin Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə



***Fuad HÜSEYNZADƏ***

***Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın katibi, Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri***

həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşıb. Bu gün yüksək dövlət qayğısı ilə əhatə olunan Azərbaycan mətbuatı özünün inkişaf dövrünü yaşayır. Ulu Öndərin mətbuata və mətbuat nümayəndələrinə göstərdiyi diqqət və qayğı Ümummilli Liderin layiqli varisi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığı tam təmin olunub. Təsadüfi deyil ki, hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycanda söz və mətbuat azadlığının təmin olunması istiqamətində ciddi addımlar atılır, bu sahənin inkişafı ilə bağlı bir sıra uğurlu layihələr həyata keçirilir. Ölkədə mətbuatla bağlı mükəmməl qanunvericilik bazasının yaradılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, senzuranın ləğvi, qəzet və jurnalların borclarının dondurulması, medianın fəaliyyətinin genişləndirilməsi və inkişafının təmin edilməsinə dair qəbul edilmiş qərarlar Ulu Öndərin ölkə jurnalistikasına verdiyi yüksək dəyərin sübutudur. Heydər Əliyev qələm sahiblərinin əməyini qeyri-adi, zəhmətli, hünər və fədakarlıq tələb edən əmək kimi ifadə edirdi, jurnalistlərə hər zaman xüsusi münasibət bəsləyirdi. Bunun məntiqi nəticəsidir ki, Ulu Öndər dəfələrlə keçirilən sorğularda "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bu siyasət nəticəsində Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən ölkə kimi tanınır.

Əminliklə deyə bilərik ki, Prezident cənab İlham Əliyevin savaş günlərində dünyanın media orqanlarına verdiyi çoxsaylı müsahibələrdə səsləndirdiyi prinsipial mövqe jurnalistlərimizi həm qətiyyətləndirdi, həm də dövlətimizin başçısının irəli sürdüyü tezislər onları xaricdən edilən informasiya təxribatlarına qarşı mübarizənin müsəlləh əsgərinə çevirdi. Vətən müharibəsi zamanı Azərbaycan mətbuatı kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynayıb. Jurnalistlərimiz Qarabağla bağlı tarixi həqiqətləri, o cümlədən işğal dövründə ermənilərin torpaqlarımızda törətdikləri vəhşilikləri və vandallığı beynəlxalq ictimaiyyətə çatdırmaq üçün fəaliyyətlərini bu gün də yorulmadan davam etdirirlər.

Hər zaman Azərbaycan həqiqətlərinin təbliği missiyasını böyük peşəkarlıqla həyata keçirən mətbuatımızın, postmüharibə dövründə də bu işi əzmlə davam etdirməkdədir. Azərbaycan mediası dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sülh təşəbbüslərinin, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən möhtəşəm bərpa-quruculuq işləri barədə xəbərlərin ölkə və dünya ictimaiyyətinə çatdırılmasında fəal rol oynayır, Böyük Qayıdış prosesini geniş işıqlandırır.

Hazırda media məkanında sürətli qloballaşma prosesi gedir. Bu da, öz növbəsində, mətbuatla bağlı qanunvericiliyin təkmilləşdirilməsini gündəmə gətirir. 2021-ci ildə Azərbaycanda "Media haqqında" Qanunun qəbul edilməsi ilə bu sahədə fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsasları, həmçinin informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydaları müəyyən olunub.

Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli Fərmanı ilə Medianın İnkişafı Agentliyinin (MEDİA) yaradılması media məkanında islahatların dərinləşdirilməsinə imkan yaratmaqla, milli mətbuatımıza yeni ruh və nəfəs gətirib.

Artıq üç ildir ki, Milli Mətbuat Günü ərəfəsində Şuşa Qlobal Media Forumu təşkil edilir. Forum dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərləri, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayır. Şuşa Qlobal Media Forumuna dünya media orqanlarının artan marağı dövlətimizin media siyasəti çərçivəsində həyata keçirdiyi davamlı tədbirlərin nəticəsidir.

Azərbaycan mediası Şuşadan, Xankəndidən, Xocalıdan, Füzulidən, Zəngilandan, Laçından və işğaldan azad edilmiş digər ərazilərimizdən xəbərlər, reportajlar hazırlayır, Qarabağın bərpasına informasiya dəstəyi göstərir. Dövlətçilik maraqlarını daim uca tutan jurnalist kollektivləri insanlarda yüksək milli şüur formalaşdırılması, cəmiyyətin ali məqsədlər uğrunda səfərbər edilməsi işinə dəyərli töhfələr verirlər. Bu gün Azərbaycanın milli mətbuatı 150 illik yubileyini dövlət və xalqın birgə bayramına çevirməklə həm tarixi mirasına sahib çıxır, həm də gələcək nəsillərə örnək olacaq bir jurnalistika mədəniyyətini yaşadır. Qarşıda duran vəzifə isə bu ənənəni qorumaq, inkişaf etdirmək və müasir dünyanın çağırışlarına uyğun şəkildə daha da gücləndirməkdir.

## *Təsdiq edilmişdir:*

*"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının*
*20 iyun 2025-ci il tarixli qərarı ilə*

# "OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin 2024-cü il üzrə İllik İdarəetmə Hesabatı

"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin

- Direktoru Roman Alloyarov

- Baş mühasib vəzifəsini icra edən şəxs
Nihad Cabbarov

**Bakı** **20 iyun 2025-ci il**

"OMNİ" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "**Emitent**") bu hesabatı Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin № 10q, 03 fevral 2016-cı il tarixdə qəbul etdiyi "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında" Qaydalarına uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: "OMNİ" Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: "OMNİ" QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1700160671
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 05.11.2003, 1700160671.

2. Emitentin hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Böyük Qala küçəsi 37;
Emitentin olduğu yer: Bric Plaza, Bakı şəhəri, Bakıxanov küçəsi 24.

3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında heç bir dəyişiklik olmamışdır. Emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaranmamışdır. Emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaranmamışdır.

4. Emitentin 2024-cü il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.

5. Emitentin 2024-cü il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.

6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.

7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:

   7.1. Hüquq xidmətlərinin göstərilməsi.

8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.

9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:

   9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;
   9.2. Mülki məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;
   9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrası, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı mübahisələrin tənzimlənməsi;
   9.4. Azərbaycan Respublikasının mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.

10. Emitentin işçilərinin sayı 16 (on altı) nəfər olmuşdur. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:

   11.1. Cəmiyyətin təkbaşçı direktoru: Alloyarov Roman Valentinoviç

12. Emitentin fiziki şəxs olan səhmdarlarının sayı dörddür. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.

13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Alloyarov Roman Valentinoviç | adi adlı sənədsiz səhm | 19 (on doqquz) | 19% (on doqquz faiz) |
| Bayramova Aygün Hüseyn qızı | adi adlı sənədsiz səhm | 30 (otuz) | 30% (otuz faiz) |
| Məmmədov Riad Eldəniz oğlu | adi adlı sənədsiz səhm | 10 (on) | 10% (on faiz) |
| Vəzirova Xatun Rzaquliyevna | adi adlı sənədsiz səhm | 41 (qırx bir) | 41% (qırx bir faiz) |

14. Emitentin səhmdarlarının 2024-cü il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:

   14.1. 2024-cü il ərzində Emitentin səhmdarlarının üç ümumi yığıncağı keçirilmişdir:

   14.1.1. Emitentin səhmdarlarının birinci ümumi yığıncağı 20 may 2024-cü il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
   14.1.2. Emitentin səhmdarlarının ikinci ümumi yığıncağı 20 iyun 2024-cü il tarixdə keçirilmişdir. Yığıncaqda dividendlərin ödənilməsi haqqında qərar qəbul edilmidir.
   14.1.3. Emitentin səhmdarlarının üçüncü ümumi yığıncağı 24 iyun 2024-cü il tarixdə Bakı şəhəri, Bakıxanov küçəsi 24 ünvanında keçirilmişdir. Yığıncaqda Emitentin illik idarəetmə hesabatının, mühasibat balansının və mənfəət və zərər hesablarının təsdiqi haqqında qərar qəbul edilmişdir.

15. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:

   15.1. Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;

   15.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi:
   1010500K, 21 noyabr 2003-cü il;

   15.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin

   dəyəri 20 (iyirmi) manat;

   15.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;

   15.5. 2024-cü il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: 2024-cü ildə 3,112,970.45 ABŞ dolları məbləğində dividend ödənilmişdir;

   15.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;

   15.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza 9-cu və 10-cu mərtəbələr, AZ 1025.

16. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

17. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

18. Ümumi yığıncaq 2024-cü il üzrə illik hesabatı 20 iyun 2025-ci il tarixdə təsdiq etmişdir.

19. 2024-cü il üzrə illik hesabat "Səs" qəzetində dərc ediləcəkdir.

**"OMNİ" QSC**
**Maliyyə vəziyyəti haqqında hesabat**
**31 dekabr 2024-cü il tarixinə**

| Bölümün, maddən | Göstəricilər | Qeydlər | 2024 | 2023 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 7 | 698121,99 | 612915,56 |
| | **Cəmi uzunmüddətli aktivlər** | | 698121,99 | 612915,56 |
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | | 0 | 0 |
| 21 | Qısamüddətli debitor borcları | 8 | 6070816,83 | 2069842,83 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 7250452,68 | 8197309,17 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | 0 | 0 |
| 24 | Sair qısamüddətli aktivlər | 10 | 0 | 2210942,2 |
| | **Cəmi qısamüddətli aktivlər** | | 13321269,51 | 12478094,2 |
| | **Cəmi aktivlər** | | 14019391,5 | 13091009,76 |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 11 | 2000 | 2000 |
| 34 | Bölüşdürülməmiş mənfəət(ödənilməmiş zərər) | | 13967367,65 | 9725411,36 |
| | **Cəmi kapital** | | 13967367,65 | 9725411,36 |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | 0 | 0 |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | 0 | 0 |
| 43 | Uzunmüddətli kreditor borcları | | 0 | 0 |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | 0 | 0 |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | 0 | 0 |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Alınmış avanslar | | 0 | 0 |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 12 | 38060,79 | 2476189,62 |
| 53 | Qısamüddətli kreditor borcları | 13 | 11963,06 | 883020,74 |
| 54 | Sair qısamüddətli öhdəliklər | 14 | 0 | 0 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 50023,85 | 3363598,4 |
| | **Cəmi öhdəliklər** | | 50023,85 | 3363598,4 |
| | **Cəmi kapital və öhdəliklər** | | 14019391,5 | 13091009,76 |

Maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər:

Direktor:

# Şəxsi sərhədlər və cəmiyyətin müdaxiləsi

Şəxsi sərhədlər insanın mənəvi, emosional və fiziki təhlükəsizliyini təmin edən daxili qanunlardır. Bu sərhədlər insanın "harada başladığını" və "başqasının harada bitdiyini" müəyyənləşdirir. Lakin kollektivist cəmiyyətlərdə, xüsusilə də Azərbaycan kimi ənənəvi sosial dəyərlərin güclü olduğu toplumlarda şəxsi sərhədlər tez-tez ailə, qohum-qonşu, hətta tanımadığımız insanlar tərəfindən pozula bilər. "Ayıbdır", "el-aləm nə deyər?", "bunu etmə, qızsan" kimi ifadələr bu müdaxilənin sosial alətləri kimi çıxış edir. Bu müdaxilə bəzən məsləhət adı ilə təqdim olunsa da, nəticə etibarilə fərdin qərar azadlığını və özünüifadəsini məhdudlaşdıra bilər. SİA mövzu ilə bağlı araşdırma aparıb.



### Şəxsi sərhəd nədir?

- Psixoloji və sosial anlamda sərhədlərin izahı

-Fiziki, emosional və intellektual sərhədlər

### Müdaxilə formaları

-Ailə və qohum təzyiqlər

-Cinsə, yaşa və sosial statusa görə gözləntilər

-Sosial şəbəkələrdə şəxsi həyatın ictimailəşməsi





### Sərhəd pozuntularının fəsadları:

-Psixoloji gərginlik və şəxsiyyətin inkişafının ləngiməsi

-Özgüvənin azalması, qərarsızlıq, asılılıq duyğusu

### Sərhədləri necə qorumaq olar?

- "Yox" deməyi öyrənmək
- Emosional zəkanın rolu

-Hüquqi və sosial müdafiə vasitələri

### Müasir gənclik bu sərhədləri qorumaqda nə qədər uğurludur?

Müasir gənclik əvvəlki nəsillərlə müqayisədə şəxsi sərhədlərin mahiyyətini daha yaxşı anlayır və bu sərhədləri qorumaqda daha çox israrlıdır. Bu, qloballaşma, texnoloji inkişaf və fərdi hüquqların daha geniş şəkildə təşviq olunması ilə bağlıdır. Xüsusilə şəhər mühitində böyüyən və ali təhsil alan gənclər arasında "yox" demə bacarığı, şəxsi məkan və qərarların toxunulmazlığı kimi anlayışlar daha çox dəyərləndirilir.

### Lakin bu müsbət tendensiyalara baxmayaraq, bir sıra maneələr də qalmaqdadır:

**Kollektiv mədəniyyətin təsiri:** Azərbaycanda ailə və cəmiyyətin qərarvermə prosesinə təsiri yüksəkdir. Bu, bəzən fərdin sərbəst seçim imkanlarını məhdudlaşdırır.

**Qeyri-rəsmi təzyiqlər:** Sosial normalar, adət-ənənələr və "el nə deyər?" düşüncəsi hələ də gənclərin sərhəd qoymaq cəhdlərini çətinləşdirir.

**Gender fərqləri:** Qızlar arasında sərhədlərin pozulması daha tez-tez müşahidə olunur. Məsələn, geyim, evlənmək yaşı, təhsil və iş seçimi kimi sahələrdə müdaxilə hallarına daha çox rast gəlinir.

**Emosional asılılıq və qorxu:** Bəzi gənclər valideynlərini incitməmək, ailə üzvlərini itirmək qorxusu ilə öz sərhədlərini qoruya bilmir və susqunluq göstərirlər.

**Rəqəmsal dövrün çətinlikləri:** Sosial şəbəkələrdə paylaşım və informasiya bolluğu da sərhədlərin pozulmasına səbəb ola bilər. Məlumatların könülsüz yayılması və rəqəmsal müdaxilə gənclərin özəl həyatına təsir göstərir.

Müasir gənclər nəzəri olaraq sərhədlərin önəmini anlayır və onları qorumaq istəyi ilə fərqlənir. Lakin bu istəyin praktikaya keçməsi üçün daha çox psixoloji dəstək, ailədaxili münasibətlərin tənzimlənməsi, hüquqi biliklərin artırılması və maarifləndirmə tədbirləri zəruridir.

### Azərbaycan cəmiyyətində şəxsi sərhədlər nə dərəcədə tanınır və qəbul edilir?

Azərbaycan cəmiyyəti kollektivist dəyərlərə əsaslanan, ailə və yaxın sosial çevrənin həyatın müxtəlif sahələrinə müdaxiləsini legitim sayan bir toplumdur. Belə bir mədəni kontekstdə şəxsi sərhədlər çox zaman açıq şəkildə tanınmır və ya kifayət qədər hörmət olunmur. Şəxsi sərhədlərin tanınması həm ictimai münasibətlərdə, həm ailə daxilində, həm də peşə mühitində müəyyən məhdudiyyətlərlə qarşılaşır.

### Ailə və şəxsi sərhədlər

Azərbaycan ailə modelində valideynlərin, xüsusilə də yaşlı nəslin gənclərin həyat seçimlərinə müdaxiləsi geniş yayılmışdır. Bu, aşağıdakı sahələrdə özünü göstərir.

-Təhsil və peşə seçimi

-Evlilik qərarları və ailə həyatı

-Geyim və davranış tərzi

-Gündəlik qərarvermə prosesi

Burada əsas arqument "yaxşılıq istəyirik" və ya "tərbiyə məsuliyyətimiz var" kimi səbəblərlə müdaxilənin normallaşdırılmasıdır.

### Cəmiyyət və sosial mühakimə

"El nə deyər?" prinsipi bir çox fərdi qərarların üzərində təsiredici amil olaraq qalır. Bu, şəxsi sərhədlərin pozulmasına rəvac verən və fərdin özünü ifadə azadlığını məhdudlaşdıran ictimai təzyiq formasıdır.

Xüsusilə kənd və yarımşəhər mühitlərində ictimai nəzarət və kollektiv mühakimə daha güclüdür.

### Gender fərqləri və sərhəd hüququ

Şəxsi sərhədlərin tanınması məsələsində qadınlar kişilərlə müqayisədə daha çox çətinliklə üzləşirlər. Qadınların şəxsi seçimlərinə müdaxilə halları daha çox olur - bu həm ailə daxilində, həm də ictimai mühitdə müşahidə olunur.

### Şəhərləşmə və yeni nəsil fərqliliyi

Son illərdə, xüsusilə Bakı və iri şəhərlərdə təhsil səviyyəsinin yüksəlməsi, psixoloji maarifləmənin artması və fərdi hüquqların müzakirəyə çıxarılması nəticəsində şəxsi sərhədlərə hörmət etmə tendensiyası yüksəlməkdədir. Gənc nəsil şəxsi məkan, emosional sərhəd, şəxsi seçim azadlığı kimi anlayışlara daha açıqdır.

Azərbaycan cəmiyyətində şəxsi sərhədlər ənənəvi dəyərlərlə müasir yanaşmalar arasında bir keçid dövründədir. Hərçənd ki, kollektivist dəyərlər hələ də güclü mövqedədir, fərdi azadlıqların və hüquqların tanınması istiqamətində yavaş, lakin sabit dəyişikliklər müşahidə olunur. Bu dəyişikliklərin sürətlənməsi üçün hüquqi maarifləndirmə, psixoloji dəstək xidmətləri və ictimai diskursda bu mövzunun aktiv təşviqi mühüm əhəmiyyət daşıyır.

*Ayşən Vəli*

# Öyrəşməkdən asılılığa gedən yol

## TƏHLÜKƏ




Asılılıq və ya aludəçilik insanın istifadə etdiyi zərərli maddə, alkoqollu içkilər və ya hər hansı bir davranış üzərində nəzarəti itirməsidir. Təkrar-təkrar istifadə olunan zərərli bir maddə və ya nəzarətsiz həyata keçirilən davranış asılılıq riski daşıyır. İnsanlar həyatda çox şeyə aludə ola bilərlər, alkoqol, narkotika, siqaret, qumar, texnologiya, hər hansı əşya və ya davranış.

Asılılıq bir çox faktorun bir araya gəlməsi nəticəsində yaranan arzuolunmaz bir vəziyyətdir. İnsan doğulduğu andan öyrənməyə və ətraf aləmin təsirlərinə məruz qalmağa başlayır. Bu müddət ərzində o, məruz qaldığı vəziyyətlərdən qorunmaq üçün bir mübarizə üsulu inkişaf etdirməlidir. Onun inkişaf etdirdiyi bu mübarizə metodunun sağlam və ya zərərli olması, insanın yaşadığı mühit, valideyn münasibəti, sosial-mədəni mühitdən asılıdır. Əgər valideynlərin övladlarına qarşı qeyri-sağlam münasibəti varsa, hər hansı bir ailə üzvündə asılılıq olubsa, təhlükəli dost çevrəsindədirsə, təhsil və ya həyatı uğursuzdursa, asılılığın hər hansı bir forması yaranır.

Ümumdünya Səhiyyə Təşkilatının Xəstəliklərin Beynəlxalq Təsnifat Təlimatında zərərli maddələr istifadəsi və asılılıq davranışı nəticəsində yaranan pozuqluqlar "psixi və davranış pozuqluqları" kimi xarakterizə edilir. Amerika Psixiatriya Assosiasiyasına görə isə, bütün asılılıqlar daha yaxşı hiss etmək və daha yaxşı performans göstərmək istəyi üzərində inşa edilir. Kimyəvi asılılıqlar çox vaxt insan könüllü olaraq həmin maddədən istifadə etmək qərarına gəldikdə başlayır. Heç kəs aludə olmaq arzusu ilə zərərli maddələrdən istifadəyə başlamır, əvvəl dadına baxmaq istəyir,sonra əhvalını düzəltmək məqsədi ilə qəbul edir və beləcə dəfələrlə həmin maddədən istifadə etdiyi üçün, onun istifadəsinə nəzarəti itirir. İnsan bu maddənin gündəlik həyat funksiyalarını pozduğunu anlasa da, istifadəsini dayandıra bilməz. Beləliklə, zərərli maddəyə olan asılılıq könüllü istifadədən məcburi istifadəyə doğru inkişaf edir.



Asılılığa səbəb olan amillər əslində bir deyil. Asılılıq üçün bir çox amil səbəb ola bilər. Asılılıq prosesinə psixoloji və bioloji amillər təsir edir. İnsan əvvəlcə maraq və qorxu səbəbindən ondan istifadə etməyə cəhd edə bilər. Asılılıq beyindəki dopaminə təsir göstərir. Dopomin hormonu düşüncə, hiss, motivasiya, hərəkət, diqqət və qərar qəbul etmə kimi bir çox əsas funksional proseslərdə iştirak edir. Dopamin hormonunun zədələnməsi nəticəsində beyin düzgün işləməməyə başlayır və asılılıq yaranır. Ona görə də asılılığı həm də beyin xəstəliyi kimi qəbul edə bilərik.

Texnologiyadan və internetdən nəzarətsiz istifadə nəticəsində yaranan davranış asılılıqları da aludəçilikdir. Oyun oynamaq, qumara meyllilik, sosial media və smartfonlardan həddindən artıq istifadə texnologiya asılılığı olaraq təyin olunur. Xüsusilə böyüklərin oynadığı oyunlara pul əlavə olunduqda qumar asılılığı riskinin artdığı və qumar aludəçisi olduğu qaçılmazdır. Xəstəliklərin Beynəlxalq Təsnifatı Təlimatında qumar oyunları davranış asılılıqları arasındadır. Qumar üzərində başlama, intensivlik, müddət, dayandırma və kontekst baxımından nəzarətin olmaması, qumar oynamağı digər həyat maraqlarından, ailədən, işdən və ya gündəlik fəaliyyətlərdən üstün tutmaq, uduzmağına baxmayaraq qumar oynamağa davam etmək qumar aludəçisi olmaq deməkdir.

Qumar aludəçiliyi uzun illər psixiatriya sahəsində impuls nəzarət pozuqluğu kimi qəbul edilsə də, son illər narkotikdən asılı olmayan asılılıqlar kateqoriyasına aid edilməyə başlanıb. Bu asılılıq artan miqdarda pul mərc etmək, qumar oynamaq istəyini boğa bilməmək fonunda baş verir. Qumar aludəliyi cəmiyyətin əsasını təşkil edən ailə institutuna, eləcə də insanın özünə maddi-mənəvii ziyan vurduğuna görə ictimai təhlükə sayıla bilər. Qumar aludəçiliyi insana, ailəyə və cəmiyyətə maddi, mənəvi, psixoloji cəhətdən zərər vurur. Amerika Psixiatriya Assosiasiyası bildirir ki, qumar oynayan insanlar ümumiyyətlə öz davranışlarını qohumlarından, xüsusən də ailə üzvlərindən gizlədirlər, maddi sıxıntıları olanda əvvəlcə ailələrindən deyil, başqalarından kömək istəyirlər. Borc almağa kimsə qalmadıqda evdən oğurluq etməyə başlayırlar. Bu xəstəliyi müalicə etmək mümkündür. Zərərli maddə asılılığının müalicə modeli patoloji qumar asılılığının müalicəsində tez-tez istifadə edildiyi üçün bu insanlar da həmin müəssisələrdə müalicə oluna bilərlər.

Dünyadakı ən dəhşətli asılılıq narkotik maddələrdə olan aludəçilikdir. Dünyada ən azı 275 milyon insan narkotikdən istifadə edir və bu insanların 13 faizi (təxminən 36 milyonu) narkomaniyadan müalicə alır. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin (UNODC) statistikası göstərir ki, 2030-cu ilə qədər bütün qitələrdə milyonlarla insanın narkotik istifadəsi daha da artacaq. Fərqli dərman növlərinin hər bir qitədə daha geniş istifadə edildiyini ortaya qoyan hesabatda ümumi məlumatlar dünyada narkotik istifadəsinin hər yerdə artmağa meyilli olmasından bəhs edilir.

Siqaretdən olan asılılıq da həm istifadə edənə, həm də çevrəsinə zərər verir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, nikotin asılılığı istifadəyə nəzarət etmək qabiliyyətinin pozulması, tütündən istifadəyə digər məşğuliyyətlərdən daha çox üstünlük verilməsi, zərər görməsinə baxmayaraq, istifadənin davam etdirilməsi, potensial təhlükəli vəziyyətlərdə tütündən təkrar istifadə, ailədə, işdə vərdişini davam etdirmək, ev şəraitində istifadə etmək kimi problemlər tütündən asılı olmaq deməkdir.



Tütün təkcə istifadəçilər üçün deyil, həm də istifadə etməyənlər üçün ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Tütün məmulatlarının tərkibindəki toksin və xərçəngə səbəb ola biləcək digər maddələr yanan siqaretdən havaya ötürülərək siqaret çəkənin yanında olanlar üçün zəhərli mühit yaradır. Bu səbəbdən tütündən istifadə etmədiyi halda tütünə məruz qalanların vəziyyəti də narahatlıq doğurur. Bu vəziyyət passiv siqaret çəkmə adlandırılır. Hər il dünyada 700 milyon uşaq tütün tüstüsünə məruz qalır, 600 min insan isə siqaret çəkməsə belə tütün tüstüsünün təsirinə məruz qaldığı üçün ölür. Başqalarının istehlak etdiyi tütün tüstüsünə məruz qalma nəticəsində ölənlər, yol qəzaları və narkotik istifadəsi nəticəsində baş verən ölümlərdən qat-qat çoxdur. Tütün tüstüsünə məruz qalma xərçəng, infarkt kimi bir çox ölümcül xəstəliklərə səbəb olur. Uşaqlar tütün tüstüsünün zərərli təsirlərinə daha həssasdırlar.

**_Lalə Mehralı_**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## "Nar" Daşkəsən festivalında iştirak edib



Sərfəli qiymətləri və bölgələrə xüsusi diqqəti ilə seçilən "Nar" Daşkəsən şəhərinin 95 illiyi münasibətilə keçirilən festivalda iştirak edib. Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən Xoşbulaq kəndində təşkil olunan möhtəşəm festivala "Nar" gözoxşayan stendi ilə xüsusi rəng qatıb.

Festivalda iştirak edən Daşkəsən sakinləri "Nar" stendində mobil operatorun təqdim etdiyi sərfəli xidmətlərlə tanış olub və tədbirə özəl kampaniya ilə yeni "Nar" nömrələri əldə ediblər. Mobil cihazların, aksesuarların və digər sərfəli məhsulların satışının təşkil edildiyi "Nar" stendində qonaqlar üçün "Nar"dan xüsusi hədiyyələr də təqdim olunub.

Qeyd edək ki, "Nar"ın festivalda iştirakının əsas məqsədi Azərbaycanın bölgələrində yaşayan abunəçilərlə birbaşa ünsiyyətdə olmaq, onların təklif və istəklərini yerində öyrənməkdir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Çıxarışlı-çıxarışsız ən ucuz evi haradan almaq olar?



"Mövcud vəziyyət göstərir ki, Azərbaycanda çoxmənzilli binaların bir qismi çıxarışlı, digəri isə çıxarışsız vəziyyətdədir. Ümumilikdə, çıxarışın mövcudluğu binanın istismara qəbul olunub-olunmamasına, hüquqi sənədləşmənin tamlığına və tikinti prosesinin normativ-hüquqi çərçivəyə uyğunluğuna bağlıdır. Çıxarışsız çoxmənzilli binalar əsasən istismara qəbul olunmamış yeni tikililərdə müşahidə olunur. Belə tikililərin rəsmi qeydiyyata alınmaması onların hüquqi statusunu qeyri-müəyyən edir və vətəndaşlar üçün əmlak üzərində tam mülkiyyət hüququnun əldə edilməsini çətinləşdirir". Bu sözləri SİA-ya açıqlamasında əmlak məsələləri üzrə ekspert Elnur Azadov deyib. Elnur Azadov sözlərinə belə davam edib: "Hazırda çıxarışsız evlərin əhəmiyyətli bir hissəsi paytaxt Bakı və onun ətraf ərazilərində - xüsusilə Şuşa şosesinə yaxın ərazilərdə, şəhərsalma baxımından kənd təsərrüfatı təyinatlı torpaqlarda yerləşir. Bu cür torpaqlarda fərdi yaşayış evlərinin tikintisi şəhərsalma sənədlərinə uyğun gəlmədiyi üçün onların sənədləşdirilməsi çətinlik yaradır. Sözügedən ərazilərdə tikilən evlər əksər hallarda yaşayış üçün istifadə olunsa da, hüquqi baxımdan mübahisəli sayılır.

Bakı şəhəri üzrə bu problem daha çox şəhər kənarı və infrastrukturdan nisbətən uzaq ərazilərdə - Sabunçu rayonu ərazisində, Türkan qəsəbəsində, Sütçülük təsərrüfatı zonalarında, eləcə də sənaye və kommersiya zonalarına yaxın yerləşən Saf qəsəbəsi və ona bitişik ərazilərdə müşahidə olunur. Bu ərazilərdə qeyri-formal yaşayış massivlərinin artımı həm şəhərsalma baxımından planlaşdırılmamış genişlənməyə, həm də hüquqi qeyri-müəyyənliklərə səbəb olur. Bununla yanaşı, bəzi fərdi yaşayış evləri də bu kateqoriyaya daxildir. Bu xüsusilə Masazır qəsəbəsinin periferik hissələrində, Binə, Sulu Təpə kimi qəsəbələrdə və s. ərazilərdə tikilmiş, lakin müvafiq sənədləri olmayan evlərə aiddir. Sözügedən zonalar infrastruktur baxımından inkişafdan geri qaldığından, dövlət tərəfindən aparılan inventarizasiya və sənədləşmə prosesi də çətinləşir.

Hazırda bu məsələ ilə bağlı dövlət səviyyəsində hüquqi amnistiya mexanizmlərinin tətbiqi nəzərdən keçirilir. İl sonuna qədər bəzi çıxarışsız binaların sənədləşdirilməsi üçün müvafiq hazırlıq işlərinin həyata keçirilməsi gözlənilir. Bu cür tədbirlər həm əmlak sahiblərinin hüquqlarını tanımaq, həm də tikinti və yaşayış mühitində hüquqi nizam-intizamın bərqərar olunması baxımından əhəmiyyətlidir".

***A. Vəli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Barselona" bu futbolçu ilə yeni müqaviləyə hazırlaşır



"Barselona" futbolçusu Jül Kunde ilə müqaviləsini uzatmağa hazırlaşır. QOL.az xəbər verir ki, bu barədə "Mundo Deportivo" məlumat yayıb. Kataloniya təmsilçisi 26 yaşlı fransalı futbolçu ilə razılaşmaq üzrədir. Eyni zamanda, klub Kunde ilə yeni müqavilənin La Liqada maliyyə fair-play qaydalarını pozmayacağına ümid edir. Müdafiəçinin "Barselona" ilə hazırkı müqaviləsi isə 2027-ci ilin iyun ayına qədərdir.

# Zinyət əşyası alan müştərilərə niyə qəbz verilmir?

*İqtisadçı mühüm məqamlara aydınlıq gətirdi*

**"Qəbz təqdim olunmaması, xüsusilə bəzi sahələrdə - o cümlədən ziynət əşyaları və geyim satışında - hələ də rast gəlinən ciddi vergi pozuntularından biridir. Müştəriyə alış zamanı kassa çeki və ya elektron qəbz verilməməsi vergidən yayınma halı kimi qiymətləndirilir və bu cür hallar qanunvericiliyə ziddir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eyyub Kərimli deyib. Eyyub Kərimli sözlərinə belə davam edib: "Vergi Məcəlləsinə əsasən, pərakəndə ticarətlə məşğul olan sahibkarlar satış əməliyyatını sənədləşdirmək və alıcıya rəsmi ödəniş sənədi təqdim etmək öhdəliyinə malikdirlər. Bu tələb həm şəffaf maliyyə dövriyyəsinin təmin olunması, həm də dövlətin vergi daxilolmalarının tam şəkildə toplanması baxımından zəruridir.**

Müştəri, qanunvericiliklə təsbit olunduğu kimi, alış zamanı qəbz tələb etmək hüququna malikdir. Əgər qəbz verilmirsə, bu hal vergi orqanları tərəfindən araşdırıla və inzibati məsuliyyət tədbirləri görülə bilər. Belə hallarda sahibkara qarşı cərimə sanksiyaları tətbiq edilir. Xüsusilə qızıl-zinət əşyalarının satışında bu kimi hallar daha çox diqqət çəkir, çünki bu sahə yüksək dəyərə malik məhsulları əhatə etdiyindən kölgə iqtisadiyyatına meyillilik riski daha yüksəkdir. Buna görə də, həm bu sahədə, həm də digər ticarət sahələrində qəbz verilməməsi vergi sisteminə ciddi təhdid kimi qiymətləndirilməlidir.



Müştərilər bu cür hallarla qarşılaşdıqda, Vergilər Nazirliyinin "Qaynar xətt" xidmətinə və ya digər müvafiq nəzarət qurumlarına müraciət edərək hüquqlarını qorumalıdırlar. Dövlət orqanlarının bu hallara qarşı daha sərt və sistemli mübarizə aparması, ictimai maarifləndirmə tədbirlərinin artırılması vacibdir".

***Ayşən***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**